# NORMALAR OLSA DA, NƏZARƏT YOXDUR

Ekspertlərin fikrincə, tikinti şirkətləri maliyyəyə qənaət etmək üçün bəzən standartlara uyğun olmayan kabellər və avadanlıqlar quraşdırır.

Son vaxtlar yenitikililərdə elektrik xətlərindəki nasazlıqlardan qaynaqlanan yanğınlar artır. Qısaqapanma və digər səbəblərdən yanğın hadisələri baş verir. Hələlik tam təsdiq olunmasa da, Yasamaldakı yanğının da elektrik xətlərindən başladığı barədə məlumat var.

Əmlak və inşaat məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, Azərbaycanda tikinti işlərinin aparılması üçün normativlər mövcuddur. Sadəcə, tikinti şirkətləri çalışırlar ki, tikinti zamanı maliyyəyə qənaət etsinlər.

SƏHİFƏ 7-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

29 NOYABR ŞƏNBƏ 2025 № 46 (4247) Qiyməti - 60 qəpik www.kaspi.az



## TÜRK DÜNYASI ÜÇÜN ƏSAS HƏDƏFLƏR

Bakıda TDT-nin media, informasiya üzrə məsul nazirlərinin və rəsmilərinin yeddinci toplantısı keçirilib. Tədbirdə bu sahədə əməkdaşlığın strateji platforma kimi xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

SƏHİFƏ 2-də



## RƏQƏMSAL SUVERENLİYİ HİSS ETDİRƏN PROBLEM

"Cloudflare" xidmətlərində yaranan nasazlıq ölkəmizin internet şəbəkəsində də ciddi problemlər yaratdı. Ekspertlərə görə, qlobal insidentlər zamanı lokal infrastrukturla işləyən sistemlər daha dayanıqlıdır.

SƏHİFƏ 4-də



## QADIN ŞAHMATÇILARIMIZIN LİNARES UĞURU

Azərbaycanın qadın şahmatı yığması tarixində ilk dəfə dünya çempionatının gümüş medallarını qazandı. Bu, şübhəsiz, qadın şahmatımızın beynəlxalq arenadakı nüfuzunu kəskin şəkildə artırır.

SƏHİFƏ 16-da




PREZİDENTİN İŞTİRAKI İLƏ QISA MÜDDƏTDƏ ÇOXSAYLI AÇILIŞLAR

# QEYRİ-NEFT SEKTORU ƏSAS PRİORİTET KİMİ

Ölkə iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş fəaliyyət ardıcıl şəkildə davam edir. Bu siyasətin nəticələri yaxın illərdə iqtisadi artım göstəricilərində daha aydın hiss olunacaq.

### YENİ MÜƏSSİSƏLƏR İSTİFADƏYƏ VERİLİR

Son illərdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin birbaşa iştirakı ilə istər paytaxtda, istərsə də bölgələrdə iqtisadiyyatın şaxələndirilməsində mühüm rola malik istehsalat müəssisələri istifadəyə verilir.

### İXRAC ARTAN TEMPLƏ DAVAM EDİR

Qərarların müsbət nəticəsi özünü qeyri-neft sektoruna aid ixrac tempində də büruzə verir. Cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 2,99 milyard dollar təşkil edib.

SƏHİFƏ 3-də

"SƏNƏT QISQANCLIQDAN UZAQ BİR YER DEYİL"

# "BU KONSERT MƏNİM ÜÇÜN HESABAT İDİ"



Parlaq və özünəməxsus səsi olan Çinarə Məlikzadə bugünlərdə Heydər Əliyev Sarayında "Gedək üzü küləyə" adlı konserti ilə dinləyicilərinə unudulmaz anlar yaşatdı. Güclü səsi, emosional ifası, səhnədəki enerjisi və səmimiyyəti ilə yadda qalan sənətçi konsertdən dərhal sonra "Kaspi"nin suallarını cavablandırdı.

SƏHİFƏ 15-də



## AVROPA MKİ-YƏ ALTERNATİV YARADIR

Ursula fon der Lyayen Ümumavropa kəşfiyyat təşkilatı yaratmaq istəyir. Tramp administrasiyasının son addımları Aİ-ni özünün mərkəzləşdirilmiş kəşfiyyat orqanını yaratmaq qərarına gəlməsinə səbəb olub.

SƏHİFƏ 5-də




## VİRTUAL XULİQANLIQ "BAHALAŞACAQ"

Edilən dəyişikliklərə əsasən, söyüş, təhqir, kobud jestlər, bədən hissələrinin əxlaqa zidd formada nümayişi kimi hallara görə 500 –1000 manat aralığında cərimə və ya 30 günədək inzibati həbs həyata keçiriləcək.

SƏHİFƏ 8-də



## SƏHİYYƏMİZDƏ YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI

Meyitdən orqan nəqli tibbi baxımdan son dərəcə mürəkkəb prosesdir. Əsas faktorlar orqan, toxuma və qan qrupu uyğunluğudur ki, bunlar transplantasiyanın uğuruna birbaşa təsir edir.

SƏHİFƏ 14-də



Azərbaycan-Aİ tərəfdaşlığı müzakirə olunub

SƏHİFƏ 2-də



"Dövlətdən və bayraqdan müqəddəs heç nə yoxdur"

SƏHİFƏ 6-da



Kafe-restoran sektoru təşvişdə

SƏHİFƏ 9-da



Avtomobillərin bahalaşması gözlənilir

SƏHİFƏ 11-də



Həm satırıq, həm də alırıq?

SƏHİFƏ 13-də



## Azərbaycan-Aİ tərəfdaşlığı müzakirə olunub

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqının rəsmi şəxsləri ilə görüşüb. “Report” xəbər verir ki, bu barədə Hikmət Hacıyev “X” sosial şəbəkəsində paylaşım edib.

“Mən Avropa İttifaqından olan həmkarlarımla Azərbaycan və Aİ arasında münasibətlərdə son vaxtlar müşahidə olunan müsbət dinamikanı müzakirə etməkdən məmnun oldum. Biz ikitərəfli gündəliyin geniş spektrini və Azərbaycan-Aİ tərəfdaşlığının daha da gücləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi apardıq”, - H.Hacıyev yazıb.



## Qırmızı Bazara növbəti köç

Xocavənd rayonuna yola salınan növbəti köç karvanı Qırmızı Bazar qəsəbəsinə çatıb, sakinlərə mənzillərin açarları təqdim olunub. Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.

Qırmızı Bazara köç edənlər ölkənin müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bununla qəsəbəyə köçürülən ailələrin sayı 67-yə (254 nəfər) çatıb.

# TÜRK DÜNYASI ÜÇÜN ƏSAS HƏDƏFLƏR



Bakıda Türk Dövlətləri Təşkilatının media, informasiya üzrə məsul nazirlərinin və rəsmilərinin yeddinci toplantısı keçirilib. Tədbirdə bu sahədə əməkdaşlığın strateji platforma kimi xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) media, informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin yeddinci toplantısı keçirilib. Toplantıda çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömer Kocaman son illərdə media sahəsində əməkdaşlığın getdikcə daha sistemli və institusional çərçivədə inkişafını qeyd edib.

Ö.Kocaman bildirib ki, üzv dövlətlərin media qurumları arasında məzmun mübadiləsinin genişləndirilməsi, strateji kommunikasiya sahəsində koordinasiyalı fəaliyyətin gücləndirilməsi və dezinformasiyaya qarşı çevik müdafiə mexanizmlərinin formalaşdırılması Türk dünyası üçün əsas prioritetlərdən birinə çevrilib. O, təşkilatın bu əməkdaşlıq xəttini daha da dərinləşdirməkdə qərarlı olduğunu, xüsusilə informasiya təhlükəsizliyi və strateji kommunikasiya istiqamətlərində yeni təşəbbüslərin və birgə layihələrin icrasının nəzərdə tutulduğunu bildirib.

### “AZƏRBAYCAN BİRGƏ TƏŞƏBBÜSLƏRİN DAVAMINDA MARAQLIDIR”

Azərbaycanın Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, TDT-nin media və informasiya sahəsində əməkdaşlığı üzv ölkələri ortaq tarix, mədəni və dil birliyi ətrafında birləşdirən strateji platforma kimi xüsusi əhəmiyyət daşıyır. O, informasiya mübadiləsinin genişləndirilməsi, saxta xəbərlər və hibrid təhdidlərə qarşı birgə mübarizə, eləcə də ümumtürk informasiya məkanının daha dayanıqlı və koordinasiyalı şəkildə qurulmasının bu əməkdaşlığın əsas hədəflərindən olduğunu vurğulayaraq, Azərbaycan tərəfinin qlobal media trendlərinin təhlili, media savadlılığının artırılması və strateji kommunikasiya üzrə birgə təşəbbüslərin davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

## Ortaq tarixi, mədəniyyəti olan coğrafiya

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini Kanat İskakov bildirib ki, Türk dünyası ortaq tarixi, mədəniyyəti və digər sahələrdə irsi olan coğrafiyadır. “Qazaxıstan xalqlarımızın və ölkələrimizin rifahına xidmət edən təşəbbüslərə açıqdır və təklifləri var. Biz sənədli film layihələrini, turizm, mədəniyyət və digər TV məzmunlarını hazırlamalıyıq”, - o, deyib

Qırğız Respublikasının Azərbaycandakı səfiri Maksat Mamıtkanov diqqətə çatdırıb ki, bu gün TDT-yə üzv ölkələr müxtəlif sahələrdə geniş əməkdaşlıq edirlər: “Bu əməkdaşlığın əsas aparıcı sütunlarından biri də informasiya və media sahəsidir. Çünki düzgün məlumatın vaxtında və etibarlı şəkildə təmin edilməsi, qarşılıqlı faydaya əsaslanan sağlam informasiya axınlarının yaradılması bizim üçün böyük əhəmiyyət kəsb edir”.

## “Bu toplantı yalnız bir iş platforması deyil”

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbərinin müavini Ferhat Pirinççi isə bu toplantının yalnız bir iş platforması deyil, eyni zamanda, ortaq coğrafiyamızın kommunikasiya, media və informasiya sahəsində daha güclü birlik yaratması üçün strateji addım olduğunu deyib: “TDT regional bir qurum olmaqdan çıxaraq qlobal bir aktor olma yolunda irəliləməkdə və nümunəvi əməkdaşlıq modelinə çevrilməkdədir. Bu yanaşma ilə təşkilatın qlobal beynəlxalq aktora çevrilməsi, regional səviyyəni aşaraq dünya miqyasında bir çox məsələdə söz sahibi olması olduqca önəmlidir”.

Özbəkistan Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin direktoru Kobuljon Axmedov nəzərə çatdırıb ki, biz artıq media sahəsində gələcək əməkdaşlıq istiqamətlərini formalaşdırırıq. Hazırladığımız tədbirlər planının həyata keçirilməsi ilə bağlı müzakirələr davam edir və bu prosesdə üzv dövlətlərin fəal iştirakı böyük əhəmiyyət daşıyır.

Toplantı çərçivəsində üzv dövlətlərin qarşıdakı dövr üçün prioritet fəaliyyət istiqamətləri nəzərdən keçirilib, TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin səkkizinci toplantısının, Media və informasiya üzrə işçi qrupunun 13-cü iclasının Qazaxıstanda keçirilməsi qərara alınıb.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# QEYRİ-NEFT SEKTORU ƏSAS PRİORİTET KİMİ

Ölkə iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş fəaliyyət ardıcıl şəkildə davam edir. Bu siyasətin nəticələri yaxın illərdə iqtisadi artım göstəricilərində daha aydın hiss olunacaq.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az




Son illərdə dünya iqtisadiyyatında müşahidə olunan qeyri-müəyyənliklər aktuallığını qoruyur. Proses özünü neft-qaz kimi strateji enerji məhsullarının qiymətlərindəki dalğalanmalarda da büruzə verir. Qlobal iqtisadi proseslər fonunda Azərbaycan da bu proseslərdən kənarda qalmır. Neft istehsalının ildən-ilə aşağı düşməsi, bu sahədən gələn gəlirlərin azalması prioritet kimi qeyri-neft sektorunun inkişafını ön plana çıxarır.

### QISA MÜDDƏTDƏ ÇOXSAYLI AÇILIŞLAR

Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Dövlət başçısının birbaşa iştirakı ilə istər paytaxtda, istərsə də bölgələrdə iqtisadiyyatın şaxələndirilməsində mühüm rola malik istehsalat müəssisələri istifadəyə verilir. Çox qısa zaman kəsiyində Prezident İlham Əliyev Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun, Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin, İmişlidə "Promalt" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) arpa emalı müəssisəsinin, Sabirabad Sənaye Məhəlləsində müxtəlif istehsalat mərkəzlərinin açılışlarında iştirak edib. Göründüyü kimi, istifadəyə verilən istehsalat müəssisələri qeyri-neft sektorunun müxtəlif istiqamətlərini özündə cəmləşdirir ki, bu da sözügedən sahənin inkişafına kompleks yanaşmanın ortaya qoyulduğunun göstəricisidir.

### QARŞIYA QOYULAN HƏDƏFLƏR

Qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan hədəflərə dair statistik göstəricilər də müsbətdir. Hökumətin hesablamalarına əsasən, 2022-2025-ci illərdə Azərbaycanda ümumdaxili məhsulun (ÜDM) orta illik artımı 3,3% səviyyəsində proqnozlaşdırılır. ÜDM-dəki bu artımın əsas təkanverici qüvvəsi isə qeyri-neft-qaz sektorudur. Proqnoza əsasən, dörd illik dövr üzrə ÜDM-in orta illik artımının 6,1% olacağı gözlənilir. Bu göstərici strategiyada müəyyən edilmiş hədəfdən daha yüksəkdir.

## Gələn ilin büdcə zərfinə dair müzakirələr

Qeyd edək ki, Milli Məclisdə gələn ilin büdcə zərfinə dair müzakirələr zamanı açıqlanan hədəflər də qarşıdakı dövrdə qeyri-neft sektorunun ölkə iqtisadiyyatında və ÜDM-də payının aparıcı mövqeyə çıxarılmasının prioritet təşkil etdiyini söyləməyə əsas verir. Azərbaycanın uzun illər yüksək olan icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti gələn il ilk dəfə olaraq 19%-ə endiriləcək. Bu göstərici uzun illər 20%-in üzərində olub. Ortamüddətli perspektivdə 2029-cu ilin sonuna icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin 13%-ə endirilməsi nəzərdə tutulur. Dünyadakı mövcud qlobal tendensiya və qeyri-müəyyənliklər nəzərə alındıqda sözügedən hədəfə



çatmaq çətin bir dinamika kimi qiymətləndirilsə də, dövlət başçısının prioritet elan etdiyi istiqamətlər bəllidir.

### 2026-CI İL ÜÇÜN 57% NƏZƏRDƏ TUTULUB

Gələcək illərdə ölkənin maliyyə dayanıqlığı, sabit iqtisadi inkişaf üçün sağlam maliyyə imkanlarının formalaşdırılması baxımından büdcə gəlirlərinin nisbətində qeyri-neft sektorunun çəkisinin ağırlıq təşkil etməsi mühüm amildir. Bu baxımdan, gələn ilin büdcə layihəsinə nəzər saldıqda prosesin artıq dönməz mahiyyət aldığının şahidi oluruq. Bu rəqəm 2026-cı il üçün 57% nəzərdə tutulub. İcmal büdcədə bu göstərici 63%-ə çatır. Qeyd edək ki, ortamüddətli hədəf qeyri-neft gəlirlərinin 69%-ə yüksəlməsidir. 2025-ci ilin ilk doqquz ayının göstəricilərinə əsasən isə, özəl sektorunun qeyri-neft-qaz vergi daxilolmalarındakı payı 77%-i ötüb. 2025-ci ilin proqnozları nəzərə alınmaqla, əhalinin gəlirlərinin əsas mənbəyi olan əməkhaqqı fondu qeyri-neft-qaz özəl sektorda 2019–2025-ci illərdə üç dəfə artıb.

## Ölkənin qeyri-neft sektorunda artan ixrac tempi

Verilən qərarların müsbət nəticəsi özünü qeyri-neft sektoruna aid ixrac tempində də büruzə verir. Məsələn, cari ilin yanvar-oktyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 2,99 milyard dollar təşkil edib. Qeyd olunan dövrdə yeyinti məhsulları üzrə ixrac 19,8 faiz artaraq 962,1 milyon dollara bərabər olub. Cari ilin on ayında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 49,6 faiz, meyvə-tərəvəz 30 faiz, kimya sənayesi məhsulları 22,8 faiz, pambıq iplik 8,8 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 3,8 faiz artıb. Aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 19,1 faiz



artaraq 1,03 milyard dollar təşkil edib.

Son illərdə Azərbaycanda yaradılan əlverişli investisiya mühiti, bu istiqamətdə aparılan ardıcıl islahatlar qeyri-neft sektoruna yatırılan xarici və daxili sərmayələrin də artmasına səbəb olub. İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr, yeni sənaye parklarının, azad iqtisadi zonaların yaradılması, tranzit və infrastrukturun inkişaf etdirilməsi istiqamətində atılan addımlar qeyri-neft sektorunun inkişafı istiqamətində qarşıya qoyulan hədəflərə çatmaqda mühüm rol oynayır.

Görünən odur ki, ölkə iqtisadiyyatın şaxələndirilməsinə, neft-qaz sektorundan gələn gəlirlərdən asılılığın minimallaşdırılmasına yönəlmiş fəaliyyət ardıcıl şəkildə davam edir. Bu siyasətin nəticələri yaxın illərdə iqtisadi artım göstəricilərində daha aydın hiss olunacaq.

MEDİA RESURSLARININ XARİCİ TEXNOLOGİYALARDAN ASILILIĞI AZALDILMALIDIR

# RƏQƏMSAL SUVERENLİYİ HİSS ETDİRƏN PROBLEM

"Cloudflare" xidmətlərində yaranan kütləvi nasazlıq ölkəmizin internet şəbəkəsində də ciddi problemlər yaratdı. Ekspertlərin qənaətincə, qlobal internet insidentləri zamanı lokal infrastrukturla işləyən sistemlər daha dayanıqlıdır.






AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ötən günlərdə ölkədə fəaliyyət göstərən bir çox xəbər portalında ciddi texniki problemlər qeydə alındı. Məlumata görə, bu, qlobal internet infrastrukturunun aparıcı təminatçılarından biri olan "Cloudflare" xidmətlərində yaranan kütləvi nasazlıqla bağlı idi. Nəticədə, onlarla yerli xəbər saytına giriş çətinləşdi, bəzi hallarda isə istifadəçilər tamamilə bu resurslara daxil ola bilmədilər. Hətta bəzi dövlət saytları da bu qlobal problemdən təsirləndi. Bu da informasiya təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirdi.

**"CLOUDFLARE" MƏSƏLƏSİ KİMİ BAXMAQ YANLIŞ OLAR"**

Məsələ ilə bağlı açıqlama verən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisinin müavini Tural Məmmədov bildirdi ki, noyabrın 18-də 9000-dən çox yerli saytın fəaliyyətinin dayanmasına bir "Cloudflare" məsələsi kimi baxmaq yanlış olar. Qurum rəsmisi vurğuladı ki, böyük potensiala malik olan şirkətlərin qarşılarına qoyacaqları məqsədlərdən biri yerli məhsulların yaradılması ilə rəqəmsal suverenliyimizə dəstək olmasıdır. Bu, həm də ölkə Prezidentinin informasiya təhlükəsizliyi ilə bağlı təsdiqlədiyi strategiya ilə də qarşıya qoyduğu əsas tapşırıqlardan biridir: "Yerli məhsulların yaradılmasının və rəqəmsal suverenliyin vacibliyini hiss etdik. Bu, xüsusilə özəl sektorun xaricdən asılılığına bariz nümunə idi. Fəaliyyəti dayanan resursların içində media resurslarının da xüsusi çəkisinin olması bizi informasiya müharibəsinə hazırlıq səviyyəmizi də diqqətdə saxlamalı olduğumuza bir işarədir. Aydındır ki, lokal mühafizə həlləri ucuz başa gəlmir. Lakin dövlətimizin apardığı uğurlu siyasətin davamı olaraq bizim də həyata keçirdiyimiz informasiya təhlükəsizliyi siyasətində lokal həllərə üstünlük verməklə və mühafizəni maksimal şəkildə lokal təmin etmək prioritet istiqamətlərimizdəndir".

Məlumdur ki, bu hadisədən bəzi dövlət saytları üzü ağ çıxdı. Buna səbəb isə, trafikin xaricə daşınmaması idi. T.Məmmədovun sözlərinə görə, son 3 ildə bir sıra dövlət qurumlarında istifadə edilən "Cloudflare" kimi trafikin xaricə daşınması halı dayandırılıb və mühafizəsi "AzStateNet" üzərindən təmin edilib: "Ümumilikdə son 3 ildə 457 dövlət obyektinin şəbəkə təminatı "AzstateNet" üzərinə keçirilərək lokal mühafizəsi təmin olunub. Bizim həyata keçirdiyimiz sözügedən mühafizə siyasəti sadəcə internet informasiya ehtiyatları ilə bağlı deyil, bu yanaşma eyni zamanda xüsusi dövlət rabitəsində də şamil olunur".

**"MİLLİ TEXNOLOJİ EKOSİSTEM GÜCLƏNDİRİLMƏLİDİR"**

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, son insidentdə dövlət saytları lokallaşdırılmış təhlükəsizlik və infrastruktur həlləri sayəsində minimal təsirlə fəaliyyət göstərdi: "Xarici servisə tam etibar olunmadığı üçün onlar qlobal insidentlərdən praktiki olaraq təsirlənmədilər. Lokal WAF, DDoS qoruma sistemləri, dövlət şəbəkəsi və müstəqil DNS xidmətləri bu cür hallarda əsas dayanıqlılıq mənbəyidir və xidmətlərin fasiləsizliyini təmin edir. Rəqəmsal suverenliyi gücləndirmək üçün prioritet istiqamətlər milli təhlükəsizlik sistemlərinin yaradılması, milli data-mərkəzlərinin genişləndirilməsi, ölkədaxili bulud və identifikasiya sistemlərinin inkişafı, milli DNS və sertifikat mərkəzlərinin qurulması və xarici texnologiyalardan asılılığın azaldılmasıdır. Dövlət strategiyasının məqsədi xarici riskləri minimuma endirmək, kritik məlumat axınını ölkə daxilində təmin etmək və milli texnoloji ekosistemi gücləndirməkdir".

## XARİCİ TEXNOLOGİYADAN ASILILIĞI NECƏ DAYANDIRMALI?

Mütəxəssis bildirir ki, bu problemlərlə üzləşməmək üçün özəl sektor və media resurslarının xarici texnologiyalardan asılılığı azaldılmalıdır: "Özəl sektor və media resursları üçün tövsiyələr hibrid modelin tətbiqi, lokal CDN və WAF xidmətlərinə keçid, məlumatların ölkə daxilində saxlanması, daxili monitorinq və insident cavab mexanizmlərinin gücləndirilməsidir. Bu tədbirlər qlobal insidentlər zamanı xidmətlərin dayanıqlılığını artırır və təhlükəsizlik risklərini minimuma endirir. "AzStateNet" və digər lokal şəbəkə həlləri dövlət saytları və kritik infrastrukturlar üçün təhlükəsiz məlumat mübadiləsi təmin edir, xarici təsirlərə qarşı dayanıqlığı artırır, trafik monitorinqini asanlaşdırır və qlobal kəsintilərdən qoruyur. Belə lokal həllər həm kibertəhlükəsizlik, həm də xidmətlərin fasiləsizliyi baxımından ciddi üstünlük yaradır".


Mehman İsgəndərov

**DAVAMLI DAYANIQLILIQ ÜÇÜN VACİB NÜANSLAR**

Həmsöhbətimiz onu da vurğuladı ki, qlobal internet insidentləri zamanı lokal infrastrukturla işləyən sistemlər daha dayanıqlıdır: "Yerli DNS, bulud platformaları, dövlət şəbəkəsi və milli təhlükəsizlik xidmətlərinin proaktiv monitorinqi xidmətlərin fasiləsizliyini təmin edir. Ehtiyat routing mexanizmləri, lokal CDN və təhlükəsizlik xidmətlərinin genişləndirilməsi, həmçinin dövlət və özəl sektor arasında məlumat mübadiləsinin gücləndirilməsi və milli insident cavab mərkəzlərinin inkişafı davamlı dayanıqlıq üçün vacibdir".

# AVROPA MKİ-YƏ ALTERNATİV YARADIR

Ursula fon der Lyayen Ümumavropa kəşfiyyat təşkilatı yaratmaq istəyir. Tramp administrasiyasının son addımları Avropa İttifaqını özünün mərkəzləşdirilmiş kəşfiyyat orqanını yaratmaq qərarına gəlməsinə səbəb olub. Amma bu ideyaya qarşı çıxanlar da var.





AZƏR NURİYEV

Avropada ABŞ-nin Mərkəzi Kəşfiyyat İdarəsinə bənzəyən yeni kəşfiyyat orqanının yaradılması diqqət mərkəzindədir. Avropa Komissiyası (AK), Avropa İttifaqı (Aİ) nə qədər təkzib etsə də, mediada, siyasi dairələrdə bu məsələnin müzakirəsi getdikcə artır. Məlum olan sadəcə odur ki, AK Aİ Baş Katibliyi strukturunda kəşfiyyat bölməsi formalaşdırmağa başlayıb. Bu barədə Britaniyanın "Financial Times" nəşri dörd mənbəyə istinad edərək məlumat yayıb. Ehtimal olunur ki, bu orqan Aİ-nin bütün dövlətlərinin kəşfiyyatlarından məlumatların toplanması və təhlili üçün mərkəzləşdirilmiş sistemin yaradılmasının ilk mərhələsi olacaq. Ona Aİ Komissiyasının başçısı Ursula fon der Lyayen rəhbərlik edəcək. Prosesə Avropa ölkələrinin kəşfiyyatlarının, məsələn, Fransa DGSE və Almaniya BND-nin keçmiş əməkdaşları cəlb olunacaqlar.

## Aİ-NİN KƏŞFİYYAT ORQANLARI "ÇOX ŞEY BİLİR"

Yeni qurumun əsas məqsədi - əvvəllər ayrı-ayrı fəaliyyət göstərən Aİ ölkələri və institutlarının kəşfiyyat məlumatlarının mübadiləsini yaxşılaşdırmaqdır. Onun yaradılması qərarı Ukrayna münaqişəsi və ABŞ-nin Avropaya dəstəyinin azalması ilə əlaqədardır. Nəşr yazır ki, Aİ-nin kəşfiyyat orqanları "çox şey bilir", lakin onların arasında mübadilə sistemi yoxdur. AK məlumatın strateji qərarlara çevrilə biləcəyi platformaya çevrilməyə çalışır. "Tərəfdaşlarımıza səmərəli və faydalı olmaq üçün kəşfiyyat məlumatlarını daha yaxşı birləşdirmək üsuluna ehtiyacımız var", - deyə mənbə bildirib.



Ursula fon der Lyayen

## KALLAS AÇIQ ŞƏKİLDƏ ÖZ RƏİSİNİN İDEYASINA QARŞI ÇIXIR

Ursula fon der Lyayenin Ümumavropa kəşfiyyat təşkilatının yaradılması ilə bağlı təşəbbüsü Avropa mediası, diplomatlar və məmurlar, həmçinin ekspertlər arasında müzakirələrə səbəb olub. İdeya Aİ-nin Kəşfiyyat və Vəziyyət Mərkəzini (INTCEN) nəzarətdə saxlayan Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) nümayəndələrinin də xoşuna gəlmir. Sonuncu Aİ-nin xarici kəşfiyyat orqanıdır. EEAS əməkdaşları "Avropa MKİ-si"nin INCEN-in funksiyalarını təkrarlayacağından və onun mövcudluğunu mənasız edəcəyindən qorxurlar.

EEAS-ın başçısı, həm də Aİ-nin xarici işlər üzrə ali nümayəndəsi Kaya Kallas açıq şəkildə rəisi fon der Lyayenin ideyasına qarşı çıxıb. O vurğulayıb ki, yeni strukturun yaradılması işin təkrarlanmasına gətirib çıxaracaq və heç bir hissedilən fayda gətirməyəcək, lakin əlavə xərclər tələb edəcək. "Bütün ölkələr büdcə çətinlikləri ilə üzləşir. Artıq edilən işdən əlavə nəsə etmək ağıllı ideya deyil. Avropa kəşfiyyat üçün yeni əlaqə nöqtələri yaratmamalı, mövcud mexanizmlər inkişaf etdirməlidir", - deyə Kallas Avropa Parlamentində bildirib. Onun sözlərinə görə, Aİ-nin aparıcı kəşfiyyatçıları yekdilliklə əlavə struktur yaratmağın məqsədəuyğun olmadığı mövqeyini dəstəkləyirlər.



Kaya Kallas

## "LYAYEN, DEYƏSƏN, TAMAMİLƏ AĞLINI İTİRİB"

Avropa nəşri "Politico" qeyd edir ki, Aİ-də kəşfiyyat "hüceyrəsi" yaratmaq ideyası qlobal təhdidlərin artması ilə diktə olunur, lakin konseptual mərhələdədir. Xüsusilə, "struktur artıq mövcud olan xidmətləri təkrarlamaq deyil, tamamlamaq" üçün nəzərdə tutulub, onun əsas vəzifəsi koordinasiyadır. Yunanıstanın keçmiş maliyyə naziri Yanis Varufakis sosial şəbəkələrdə yazıb: "Fon der Lyayen, deyəsən, tamamilə ağlını itirib". Nəşr yazır ki, Tramp administrasiyasının qeyri-sabit xarici siyasəti Avropa ölkələrinin MKİ ilə əməkdaşlıq imkanlarına olan inamını sarsıdıb. Mənbələrin sözlərinə görə, MKİ direktoru Con Retklif məxfi səfərlə Brüsselə gedib. O, Aİ rəsmiləri ilə görüşərək kəşfiyyat məlumatlarının mübadiləsi ilə bağlı narahatlıqları aradan qaldırmağa çalışıb. Bundan əvvəl MKİ-nin sabiq əməkdaşı Larri Conson Avropa ölkələrinin müharibəyə hazır olmadığını, buna baxmayaraq, Rusiya ilə qarşıdurmanı alovlandırmağa davam etdiklərini bildirmişdi.

İtaliyanın "Europa Today" nəşri Finlandiyanın keçmiş prezidenti Sauli Niinistenin xarici təhdidlərdən qorunmanı gücləndirmək üçün Ümumavropa kəşfiyyat xidmətinin yaradılmasını dəstəkləyən hesabatını təqdim edib. O qeyd edib ki, təhlükəsizlik sahəsində qərarlar Aİ-yə təsir edən təhdidlərin tam və vaxtında anlaşılmasına əsaslanmalıdır, vahid xidmət isə operativ şəkildə ölkələrə və təsisatlara təxribat və xarici agentlərə qarşı durmağa kömək edəcək. Hesabatda qeyd olunur ki, yeni qurumu yaratmaqda məqsəd milli kəşfiyyatları əvəz etmək deyil. İdeya müəlliflərinin əsas planları Aİ-nin fəaliyyətini dəstəkləmək üçün ortaq strukturların inkişafına nail olmaqdır.

## SƏLAHİYYƏTLƏRİN TƏKRARLANMASI TƏHLÜKƏSİ VAR

İtaliyanın "Corriere Nazionale" nəşri diqqəti Aİ-də artıq fəaliyyət göstərən və bir çox kəşfiyyat funksiyalarının həvalə edildiyi Avropa Siyasi Məlumat və Təhlükəsizlik Mərkəzinə yönəldir. Mərkəzin rəhbəri Rikardo Baretski bəyan edib: "Avropa Komissiyasının "Avropa MKİ-si" yaratmaq üçün hər hansı bir cəhdi hüquqi baxımdan şübhəlidir və əslində artıqdır. Bizim mərkəz artıq bu funksiyaları yerinə yetirir".

Beləliklə, "Avropa MKİ-si" yaratmaq ideyası ciddi institusional, hüquqi, maliyyə və siyasi manelərə rast gəlir. Elə bu səbəbdən də ideya hələlik müzakirə mərhələsində qalır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

"Musiqi, ədəbiyyat zövqün və dünyagörüşünün formalaşmasında mühüm komponentdir"

# "DÖVLƏTDƏN VƏ BAYRAQDAN MÜQƏDDƏS HEÇ NƏ YOXDUR"

Elçin Mirzəbəyli: "Artıq rəqiblərimiz tək özümüz deyilik. Rəqibimiz həm də süni intellektdir. Bizi sıradan çıxarmağa, öz nəzarəti altına salmağa çalışan bir reallıqla üz-üzə qalmışıq. Yeganə çıxış yolumuz əvəzolunmaz olduğumuzu təsdiqləməkdən keçir".



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Paytaxtdakı 132-134 nömrəli liseydə baş tutan "Məktəbdə" layihəsi şagird və müəllimləri millət vəkili, Əməkdar jurnalist Elçin Mirzəbəyli ilə görüşdürdü. Bakı Şəhəri üzrə Təhsil İdarəsi və "Kaspi" qəzeti tərəfindən reallaşdırılan layihənin budəfəki qonağı təhsil və cəmiyyətimiz üçün önəmli məsələlərə toxundu.

### "ORTA MƏKTƏBDƏKİ BÜTÜN MÜƏLLİMLƏRİMİ XATIRLAYIRAM"

E.Mirzəbəyli görüşə özünün məktəb xatirələrindən danışmaqla başladı: "Məktəbə ayaq basdığım gün sinif otağına daxil olanda ayaqqabılarımı çıxarmışdım. Bu, hər kəsin gülüşünə səbəb olmuşdu. Sonra da müəllimlərim bunun izahını fərqli formada verməyə çalışdılar. İlk müəllimim Məsmə müəllimə olub, hazırda dünyasını dəyişib. Orta məktəbdəki bütün müəllimlərimi xatırlayıram. Onların hər birinin mənim formalaşmağımda rolu olub. Baxmayaraq ki, riyaziyyat təmayüllü məktəbdə təhsil almışam, riyaziyyat müəllimim Rza müəllimin musiqi zövqümün formalaşmasında xüsusi xidməti olub. O, məni dünyanın tanınmış bəstəkarları və onların əsərləri ilə tanış edib".

Millət vəkili qeyd etdi ki, musiqi, ədəbiyyat insanın zövqünün və dünyagörüşünün formalaşmasında mühüm komponentdir: "Bu baxımdan, musiqini də, ədəbiyyatı da, tarixi də sevmək və öyrənmək lazımdır". E.Mirzəbəyli oxuduğu illərlə indiki dövrü müqayisə etdi: "Biz sovet dövrünün uşaqlarıyıq. Mən həmin dövrü bəzən itirilmiş vaxt, özümüzü itirilmiş vaxtın adamları adlandırıram. Çünki gəncliyimizin əhəmiyyətli hissəsi qarşıdurmaların, ziddiyyətlərin içərisində keçib. Amma sizin yaşadığınız dövr və zaman kəsiyi fərqlidir. İnsanın öz dövlətində, öz bayrağı altında yaşaması onun üçün ən böyük nemətdir. Siz qalib dövlətin övladlarısınız!"

### "VƏTƏNİ, DÖVLƏTİ SƏSSİZ SEVMƏK LAZIMDIR"

E.Mirzəbəyli yaxşı siyasətçi olmağın "sirrini" də açdı. O, fəaliyyətində jurnalist, siyasətçi, yoxsa millət vəkili missiyasının daha önəmli olduğunu da anlatdı: "Əslində mən siyasətçi olmaq haqqında düşünməmişdim. Məni siyasətə 1988-ci ildə Qarabağın Azərbaycandan qoparılması ilə bağlı başlayan hadisələr gətirdi. Siyasət özümü ifadəetmə formalarından biridir. Siyasi jurnalistika mənim peşəmdir. Millət vəkili isə missiyadır, xalqın sənə verdiyi təyinatdır. Bu günə qədər həyatda əldə etdiyin nələr varsa, onları ifadə etmək üçün bir platformadır. Əslində bunların arasında gözəgörünməyən bir bağlılıq da var". E.Mirzəbəyli qeyd etdi ki, yaxşı siyasətçi olmaq üçün ilk növbədə peşəni yaxşı bilən mütəxəssis olmaq lazımdır: "15-20 il əvvəl insan özünün siyasi potensialını, iddialarını büruzə vermək üçün ya peşəkar media resurslarından istifadə etməli, ya da hansısa siyasi proseslərin içərisində yer almalı idi. İndi virtual aləmdə rahat şəkildə özünün siyasi baxışlarını ifadə edə bilərsən. Mənə görə vətəni, dövləti səssiz sevmək lazımdır. Əgər gələcəkdə aranızdan kimsə siyasi proseslərin içərisində yer alacaqsa, unutmayın ki, sizin üçün bu dövlətdən və bayraqdan müqəddəs heç nə yoxdur".

> *"Məni narahat edən təhsilin şəxsiyyətin yetişdirilməsi prosesindən kənarda qalmasıdır. Müəllimlərin sadəcə təhsil verən olması, məktəbin şagirdə təsirgöstərmə qüvvəsinin azalması məni narahat edir."*

### HOBBİ, YOXSA DAXİLİ EHTİYAC?

Millət vəkili şagirdlərin "Şeir yazmaq hobbidir, yoxsa daxili ehtiyac?" sualını da cavablandırdı: "Şeir yazmaq həm daxili ehtiyacdır, həm də hobbidir. Şeir yazmaq peşə deyil. Əgər bir sahə sənə qazanc gətirmirsə, sənin peşən deyil, hobbidir. Amma sən bu hobbini peşə səviyyəsində reallaşdırırsansa, bu, üstünlüyündür. Təəssüf ki, bu gün Azərbaycanda ədəbiyyat insanlar üçün gəlir mənbəyi deyil. Kitabların çapı, oxucu sayı azdır, oxu mədəniyyəti sıradan çıxır. Bu yanaşma təkcə ənənəvi kitablarda deyil, elektron şəkildə olan kitablarda da özünü büruzə verir. Hesab edirəm ki, gələcəkdə poeziyanın da, ədəbiyyatın da mahiyyəti dəyişməsə də, siması dəyişəcək. Ümumiyyətlə, poeziya, ədəbiyyat yavaş-yavaş gəlir mənbəyi olmaqdan çıxacaq".



Foto: Əjdər İbrahimov/Global Photostock

## İş varsa, narahatlıq da olacaq

Millət vəkili təhsilimizin hazırkı durumuna da münasibət bildirdi: "Məni narahat edən təhsilin şəxsiyyətin yetişdirilməsi prosesindən kənarda qalmasıdır. Müəllimlərin sadəcə təhsil verən olması, məktəbin şagirdə təsirgöstərmə qüvvəsinin azalması məni narahat edir. İnzibati metodların əleyhinəyəm. Sadəcə, təlim-tərbiyə prosesinin təşkil olunması üçün məktəbin, müəllimin əlində hansısa mexanizmlər olmalıdır. İş varsa, narahatlıq da olacaq. Mən Azərbaycan təhsilində aparılan islahatların nəticə verəcəyinə inanıram".

E.Mizəbəyli sosial platformalarda məktəb və müəllimlər haqqında yer alan neqativ, qərəzli fikirlərə də toxundu: "Mən həmişə bu cür hadisələrə sərt reaksiya vermişəm. Elmin, təhsilin alternativi yoxdur. Təhsil sıradan çıxırsa, onun yerində yaranan boşluqları eybəcər ideologiyalar tutur. Təəssüf ki, ictimaiyyət neqativin yanında rahatlıqla yer alır. Bu prosesin qarşısını inzibati metodlarla, hüquqi məhdudiyyətlərlə almaq mümkün deyil. Sadəcə, ölkə vətəndaşları bu prosesdə fəallıq göstərməli, mənbəyi olmayan məlumatlara inanmamalıdırlar".

### "FƏRQLİ BİR DÜNYAYA QƏDƏM QOYURUQ"

Millət vəkili gələcəkdə yaxşı mütəxəssis kimi yetişmək, ölkəmizə layiqli vətəndaş olmaq üçün məktəblilərə tövsiyələrini də verdi: "Fərqli bir dünyaya qədəm qoyuruq. Artıq rəqiblərimiz tək özümüz deyilik. Rəqibimiz həm də süni intellektdir. Bizi sıradan çıxarmağa, öz nəzarəti altına salmağa çalışan bir reallıqla üz-üzə qalmışıq. Yeganə çıxış yolumuz əvəzolunmaz olduğumuzu təsdiqləməkdən keçir. O qədər yaxşı mütəxəssis olmalısınız ki, sizi əvəz etmək mümkün olmasın. Yaxşı vətəndaş olmaq isə hər kəsin öz sahəsində vətəninə, xalqına xidmət etməsindən ibarətdir".



# NORMALAR OLSA DA, NƏZARƏT YOXDUR

**Son zamanlar paytaxt Bakıda yenitikililərdə elektrik xətlərində nasazlıqlardan qaynaqlanan yanğınlar artıb. Ekspertlərin fikrinə görə, tikinti şirkətləri maliyyəyə qənaət etmək üçün bəzən standartlara uyğun olmayan kabellər və avadanlıqlar quraşdırır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son vaxtlar yenitikililərdə elektrik xətlərindəki nasazlıqlardan qaynaqlanan yanğınlar artır. Qısaqapanma və digər səbəblərdən yanğın hadisələri baş verir. Hələlik tam təsdiq olunmasa da, Yasamaldakı yanğının da elektrik xətlərindən başladığı barədə məlumat var. Əvvəllər də yenitikililərdə bu cür böyük yanğınlar yaşanıb. Bunlar belə bir sual yaradır: yenitikililərdə elektrik xətlərinin keyfiyyətinə nəzarət edilirmi?

### "BOŞLUQ ÇOXMƏNZİLLİ BİNALARIN İDARƏ OLUNMASINDADIR"

Əmlak və inşaat məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, Azərbaycanda inşaat normativləri mövcuddur. Sadəcə, tikinti şirkətləri çalışırlar ki, tikinti zamanı maliyyəyə qənaət etsinlər: "İnşaat materialları nə qədər standartlara cavab versə də, bəzi xüsusiyyətlərinə görə qüsurlu ola bilər. Nəzərə almalıyıq ki, ölkəmizə keyfiyyəti aşağı məhsullar da ixrac olunur. Hansı ki, bu məhsullar müəyyən müddət istifadə olunduqdan sonra qüsurları üzə çıxır. Nəticədə problemlər yaranır. Ölkəmizdə dəfələrlə yenitikili binalarda kabel şaxtalarında, yaxud texniki avadanlıqların olduğu otaqlarda yanğın hadisəsi baş verib. Səbəblər müxtəlifdir. Materiallar qüsurlu olmasa belə, düzgün istismar edilmədikdə bu kimi hadisələr baş verir. Fikrimcə, boşluq çoxmənzilli binaların idarə olunmasındadır".

E.Azadov bildirdi ki, naqillər nə qədər dözümlü olsa da, kənar müdaxilə zamanı qəza qaçılmazdır: "Qeyri-yaşayış sahələrinin idarə olunması müştərək cəmiyyətin, yaxud MTK-nın səlahiyyətindədir. Bizdə isə bu ərazilər tikinti şirkətinə məxsus olur. Onlar həmin əraziləri icarəyə verir, satırlar. Bu zaman layihədə nəzərdə tutmayan şəkildə fəaliyyət təşkil olunur, bina və texniki avadanlıqlar normadan artıq yüklənir. Texniki yüklənmələr nəticəsində də müxtəlif qəzalar baş verir. Nəzarət mexanizmi üçün binaların idarə edilməsi ilə bağlı qanunların təkmilləşməsi lazımdır. Yerli icra qurumları yerində reydlər keçirməlidir".

### "MƏNZİLLƏRƏ DAİR BELƏ YOXLAMALAR MÖVCUD DEYİL"

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev isə qeyd etdi ki, elektrik təsərrüfatı, naqillər üzrə yoxlamalar obyektlər üçün məcburidir, lakin fərdi yaşayış binaları üçün nəzarət məcburi deyil: "Fövqəladə Hallar Nazirliyi elektrik təsərrüfatlarına baxış keçirir. Yanğın risklərinin müəyyən edilməsi üçün obyektlərdən bunu tələb edirlər. Müqavimətə davamlılıq, izolyasiya və s. hər biri yoxlanılır. Lakin mənzillərə dair belə yoxlamalar yoxdur. Fərdi yaşayış müəssisələri də ildə bir dəfə ixtisaslaşmış müəssisəni dəvət edərək elektrik təsərrüfatına baxış keçirə bilər. Hər hansı nasazlıq varsa, elektrik şəbəkəsi normadan artıq yüklənirsə, bu da elektrik təsərrüfatının qızmasına, qısaqapanma, alışma və yanğına gətirib çıxarır. Çünki hazırda mənzillərdə elektriklə işləyən avadanlıqların sayı çoxdur. Daha əvvəl tikilən binalarda bu kimi hallar nəzərə alınmadıqda yüklənmə baş verə bilir. Elektrik naqilləri çəkilərkən binanın həcmi, tutumu, kvadratı, mərtəbə sayı, mənzillərdə nə qədər paylayıcı olması və digər nüanslar nəzərə alınmalıdır. Bütün binalarda standartlar eyni deyil".

### BƏS NƏZARƏT HANSI QURUMDADIR?

Fövqəladə Hallar Nazirliyindən bildirildi ki, onlar yanğından mühafizə ilə bağlı yoxlamalar həyata keçirirlər. Lakin bu yoxlamalar sadəcə elektrik naqilləri ilə bağlı olmur. Elektrik xətlərinə aid normalara onlar nəzarət etmirlər.

Yoxlamalar barədə qurumdan bildirildi ki, yoxlamalar "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi" haqqında Azərbaycan Respublikasının Qanununun tələbləri çərçivəsində həyata keçirilir. Belə ki, yoxlamalar əvvəlcədən növbəti il üçün planlaşdırılır və növbəti il ərzində müəyyən olunmuş dövriliklə yoxlamaların icrası təmin olunur: "Azərbaycan Respublikasında Yanğın təhlükəsizliyi Qaydaları"nın (01-2001) 6.1-ci yarımbəndinin tələblərinə əsasən elektrik qurğuları və elektrik qurğularının istehlakçılar tərəfindən istismarı zamanı müvafiq Qaydalara və digər normativ sənədlərə uyğun olaraq quraşdırılıb istismar edilməsi tələb olunur. Sözügedən tələbin həyata keçirilməsinə nəzarət tədbirləri çərçivəsində bu işlərin normalara uyğun olub-olmaması ilə bağlı müvafiq sənədlər istehlakçıdan, yəni yoxlamaya cəlb olunmuş sahibkarlardan tələb olunur. Bu tələblər təqdim olunmadıqda Dövlət yanğın nəzarəti inspektoru tərəfindən cavabdeh şəxs barəsində İnzibati Xəta haqqında Protokol tərtib olunur, eyni zamanda bu pozuntunun aradan qaldırılması üçün müvafiq məzmunlu tələbnamə ona təqdim edilir".

"Azərişıq" ASC-dən isə bildirildi ki, elektrik xəttini hər bir obyekt, yaxud bina özü çəkir. Onlar yalnız sayğac quraşdırır və xətləri şəbəkəyə, yarımstansiyalara birləşdirirlər. Yenitikililərdə elektrik naqillərinin çəkilməsi və bu işə nəzarət edilməsi onların səlahiyyətində deyil.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən də bildirildi ki, qurum yalnız tikinti ilə bağlı normativləri müəyyən edir.



Elnur Azadov    Elmar Nurəliyev

## NORMALAR VƏ STANDARTLAR NƏ DEYİR?

"Yaşayış binaları. Layihələndirmə normaları"na görə yaşayış binalarının elektrik şəbəkələri avtomatik mühafizə sistemləri - qısaqapanma, artıq yüklənmə və sızma cərəyanından qoruma cihazları ilə təchiz olunmalıdır. Bu sistemlər yanğın riskinin qarşısını alan əsas mexanizmlərdir. Elektrik şitləri və kabel avadanlıqlarının yerləşdirilməsi üçün xüsusi qaydalar mövcuddur: onlar vanna otağı, sanitar qovşağı kimi nəmləşmə olan sahələrin altında quraşdırıla bilməz. Eyni zamanda, elektrik lövhələrinə giriş ya birbaşa küçədən, ya da mənzillərdənkənar dəhlizlərdən təmin edilməlidir ki, fövqəladə hallarda müdaxilə imkanları məhdudlaşmasın. Kabel şaxtaları və mühəndis kommunikasiya kanalları yanğına davamlı materiallardan hazırlanmalı və odadavamlılıq tələblərinə uyğun olmalıdır.

"Elektrik təhlükəsizliyi standartı"na əsasən, təhlükəsizlik baxımından elektrik qurğularında cərəyanaparan hissələr mütləq izolyasiya olunmalı, torpaqlama sistemi tətbiq edilməli və avtomatik söndürmə mexanizmləri nəzərdə tutulmalıdır. İstifadə olunacaq xətlərin növləri də normativ sənədlərlə müəyyən edilir. Mis kabellər yaşayış və ictimai binalarda əsas seçimdir, çünki yüksək keçiricilik və yanğın təhlükəsizliyi baxımından etibarlıdır. Alüminium kabellər daha çox sənaye obyektlərində və yüksək gərginlikli xətlərdə istifadə olunur, yaşayış binalarında isə yalnız xüsusi şərtlərlə tətbiq edilir. İzolyasiyalı kabellər (PVC, XLPE) yanmayan və çətin yanan materiallardan olmalı, BCH (STN) 59-88 standartının tələblərinə cavab verməlidir.



# VİRTUAL XULİQANLIQ "BAHALAŞACAQ"

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərə əsasən, söyüş, təhqir, kobud jestlər, bədən hissələrinin əxlaqa zidd formada nümayişi kimi hallara görə 500–1000 manat aralığında cərimə və ya 30 günədək inzibati həbs həyata keçiriləcək. Bəs yeni qaydalar qüvvəyə mindikdən sonra sosial şəbəkələrdəki mövcud mənzərə dəyişəcəkmi?



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Sosial platformalarda hər dəqiqə kimsə böhtan və təhdidlərin qurbanına çevrilir. Bunun qarşısını almağa kömək edəcək optimal mexanizm illərdir ki axtarılır. Təəssüf ki, hər dəfə gündəmə gələn bu aktual məsələ az sonra heç nə olmamış kimi unudulur. Bugünlərdə Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinin "Xırda xuliqanlıq" maddəsinə yeni hissələrin əlavə olunması ilə bağlı səslənən təkliflər isə problemi yenidən gündəmə gətirib. Təklifə görə, sosial şəbəkədə cəmiyyətə qarşı hörmətsizlik, mənəvi dəyərlərə uyğun olmayan qeyri-etik paylaşımlar və çağırışların edilməsinə görə cərimə və cəzalar müəyyən edilir. İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər reallaşarsa, söyüş, təhqir, kobud jestlər, bədən hissələrinin əxlaqa zidd formada nümayişi və s. kimi hallara görə 500-1000 manat aralığında cərimə və ya 30 günədək inzibati həbs həyata keçiriləcək. "Xırda xuliqanlıq" kateqoriyasına aid ediləcək xoşagəlməz, lakin etik sərhədləri pozan hallara görə 50-100 manat cərimə və ya 15 günədək inzibati həbs tətbiq olunacaq.

Bəs yeni qaydalar qüvvəyə mindikdən sonra sosial şəbəkələrdəki mövcud mənzərə dəyişəcəkmi?

### MƏSULİYYƏTLİ DAVRANIŞA SÖVQ EDƏCƏK

"Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri, media eksperti Müşfiq Ələsgərlinin sözlərinə görə, Azərbaycan qanunvericiliyinin mövcud variantlarında sosial şəbəkələrdə etik norma və mənəvi-mədəni dəyərlərə zidd olan paylaşımlar üzrə məsuliyyəti müəyyən edən maddələr pərakəndə haldadır. Milli Məclisdə indi irəli sürülən təkliflər internet informasiya resurslarında "ictimai mənəviyyata, milli-mənəvi dəyərlərə zidd", "cəmiyyətə açıqca hörmətsizlik" ehtiva edən paylaşımların hansı hüquqi məsuliyyət yaratdığı barədə təsəvvürləri konkretləşdirir: "İndi hər kəsə aydın olacaq ki, bu cür pozuntulara yol vermək inzibati xətaya çevrilir, hüquqi məsuliyyət yaradır". İB sədrinin sözlərinə görə, təkliflər cinayət məsuliyyəti yaratmayan, yəni zor, fiziki təzyiq və ya mülkiyyətə ziyanla müşayiət edilməyən, inzibati tənbeh tələb edən halları nəzərdə tutur: "Bu təşəbbüs interneti "boz zona" hesab edən, etik və mənəvi normaları pozanları məsuliyyətli davranışa sövq etməyə yönəlib".




## PROBLEMİN HƏLLİNDƏKİ BOŞLUQLAR

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əlimənməd Nuriyev hesab edir ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklik zəruridir, amma problemi təkbaşına həll etməyəcək. Belə ki, təhqir və söyüşlərlə mübarizə üçün həm hüquqi tərkib, həm sübut mexanizmləri, həm platforma məsuliyyəti sistemi yenilənməlidir: "Cəzanı sərtləşdirməklə məsələ bitmir. Yalnız kompleks model tətbiq olunarsa, real dəyişikliklər baş verə bilər".

Ə.Nuriyevin fikrincə, ümumiyyətlə, sosial şəbəkələrdə yazılan təhqirlər, xuliqanlıq, şantaj, şəxsi həyata müdaxilə və s. kateqoriyaların dəqiqləşdirilməsi hüquqi baxımdan çətin olur: "Şəxsi müəyyənləşdirmək prosesi çətindir. Digər tərəfdən, xarici platformalardan məlumat almaq bəzən vaxt aparır və nəticə vermir. Çox vaxt müraciət edəndə cavab vermirlər. Çünki əks halda həmin platformalara maraq və onların müştəriləri azala bilər". Ekspert hesab edir ki, bizdə sübutların rəqəmsal formatda toplanması və prosessual formada uyğunlaşdırılması tam formalaşmadığı, həmçinin sosial platformaların məsuliyyət modelinin olmadığı üçün bu cür halların yayılması artır: "Bir çox ölkə platforma məsuliyyət modelinə keçib. Yəni şikayətin götürülməsi, təhqir və zorakılıq hallarının silinməsi, istifadəçinin bloklanması platforma üzərinə öhdəlik kimi qoyulub. Azərbaycanda belə mexanizmin hüquqi bazası hələ formalaşmayıb. Nəticədə sosial şəbəkə operatorlarına müdaxilə imkanları qeyri müəyyəndir".

Ekspertin fikrincə, cəza mexanizmi olsa da, qabaqlayıcı mexanizm yoxdur: "İnzibati məsuliyyət nəticəyə yönəlib. Həm monitorinq, həm rəqəmsal savadlılıq, həm sosial media etikası üzrə maarifləndirici komponentlər yetərincə institutsionallaşmayıb. Hüquqi məsuliyyət və ictimai zərər haqqında ictimaiyyətin məlumat səviyyəsi aşağıdır: "Məcəlləyə dəyişiklik edilərsə, bu, vəziyyəti qismən dəyişər. Ancaq rəqəmsal mədəniyyət formalaşmasa, sosial şəbəkə platformalarla əməkdaşlıq instisuonal səviyyədə qurulmasa, blokların toplanma mexanizmi təkmilləşməsə inzibati cəza təkbaşına problemin həllini təmin etməyəcək".



Müşfiq Ələsgərli Əlimənməd Nuriyev

## BU ƏMƏLƏ GÖRƏ CƏZA LABÜD OLMAYA BİLƏR



Ruslan Vəliyev

Hüquqşünas Ruslan Vəliyev bildirir ki, qanunvericiliyə təklif edilən dəyişikliyin necə nəticə verəcəyini qabaqcadan demək çətindir: "Bizim təhsil aldığımız dövrdə professorlar Roma hüququ haqqında danışanda deyirdilər ki, ən çox oğurluq halları məhz insanların oğurluğa görə edam olunanlara tamaşa etməyə gəldiyi vaxt baş verirmiş. Bu onu göstərir ki, cəza hər zaman labüd olmaya bilər. Hüquqşünaslar, hakimlər də həmişə "cəza sərt olanda nəticəsi olurmu?" deyə düşünürlər. Bizim qanunvericilikdə söyüş və təhqirlərin, başqalarına şər və böhtan atılması xarakterli məlumatların yayılması qadağandır. Bu qadağa "KİV haqqında" qanunda da yer alıb. Sadəcə, qanunvericilikdə olan maddələr konkret olmadığı üçün işlək deyil. İndi isə qanunvericilik konkretləşdirməyə çalışır ki, hansı növ məlumatların dərc edilməsi qanunsuz sayılmalıdır və buna görə hansı sanksiyalar tətbiq edilə bilər. Məsələnin konkretləşməsi gələcəkdə şəxsin bu cür əməllərə görə məsuliyyətə cəlb olunması üçün bir əsas kimi kömək edəcək".

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



REKORD QİYMƏT ARTIMI AZƏRBAYCANDA DA QƏHVƏNİN BAHALAŞMASINA SƏBƏB OLACAQMI?

# KAFE-RESTORAN SEKTORU TƏŞVİŞDƏ

Dünya bazarında qəhvə qiymətləri rekord həddə çatıb. ABŞ-nin tətbiq etdiyi gömrük rüsumları və Braziliyadakı əlverişsiz hava şəraiti qiymətləri bahalaşdırıb. Bahalaşmanın Azərbaycan bazarına da təsir edəcəyi gözlənilir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



Son günlər qlobal bazarlarda qəhvə qiymətləri rekord həddə çatıb. Belə ki, Nyu-York birjasında ticarət olunan “Arabica” növünün qiyməti son illərin ən yüksək səviyyəsinə çataraq beynəlxalq tədarük zəncirində gərginlik yaradıb. ABŞ-nin tətbiq etdiyi gömrük rüsumları və Braziliyadakı əlverişsiz hava şəraiti qəhvənin maya dəyərinə təsir edən əsas amillər kimi göstərilir. Bu proses yalnız istehsalçı ölkələri deyil, həm də idxalçı bazarları, o cümlədən Azərbaycanı da maraqlandırır.

Maraqlıdır, qlobal bazarda rekord qiymət artımı Azərbaycanda da qəhvənin bahalaşmasına səbəb olacaqmı? Ümumiyyətlə, bu vəziyyət Bakıda fəaliyyət göstərən “kofeşop”lara necə təsir edəcək?

**“QİYMƏT ARTIMININ HİSS OLUNMASI QAÇILMAZDIR”**

Qlobal bahalaşmanın yerli bazara təsirindən danışan Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının (AQİSA) sədri Emin Dostiyari “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, “Arabica” qəhvəsinin qiymətindəki artım beynəlxalq ticarət zəncirində xammal dəyərini yüksəldir: “Azərbaycan idxalçı ölkə olduğu üçün bu artımın daxili bazarda hiss olunması qaçılmazdır. Qiymət artımı xüsusilə tam “Arabica” və bu əsaslı qarışıqlarda daha tez görünəcək”.

Mütəxəssis vurğulayır ki, bu vəziyyət kafe və restoran sektoruna təsirsiz ötüşməyəcək: “Bakıdakı “HoReCa” sektoru (kafe, restoran) xammalın bahalaşmasını ya menyu qiymətlərinə əks etdirəcək, ya da daha ucuz qarışıqlara keçid edəcək. Bu, xüsusilə yüksək seqmentdə müştəri davranışını dəyişə bilər”.



Emin Dostiyari

**İSTEHLAK AZALACAQ, YOXSA...**

İstehlakçı davranışına gəldikdə isə, AQİSA sədri vurğulayır ki, bahalaşma fonunda istehlakçıların bir hissəsi daha ucuz robusta qarışıqları, yerli brendlər, hətta çaya yönələ bilər: “Digər hissəsi isə bu duruma istehlakı azaltmaqla reaksiya verəcək. Bu, premium seqmentdə daha çox hiss oluna bilər”.

Mütəxəssis vurğulayır ki, gömrük rüsumlarının optimallaşdırılması, qovrulmamış xam qəhvə dənələrinin kənd təsərrüfatı xam məhsulu kimi vergidən azad edilməsi daxili istehsalçılar üçün maya dəyərini sabit saxlamağa kömək edər: “Həmçinin idxal mənbələrinin artırılması, məsələn, Kolumbiya ilə yanaşı Braziliya, Vyetnam, Efiopiya kimi ölkələrdən idxal da riskləri azaldar. Bununla yanaşı, lokal emal, yəni qovurma müəssisələrinin gücləndirilməsi, qovurma və qablaşdırma sahəsində yerli istehsalın stimullaşdırılması bu tendensiyanın qarşısını ala bilər”.

## QLOBAL QİYMƏT ARTIMI DAVAMLI OLARSA...

E.Dostyarinin sözlərinə görə, qlobal qiymət artımı davamlı olarsa, bu, təkcə istehlak bazarına deyil, həm də “HoReCa” sektorunun xərclərinə təsir edəcək: “İqtisadi baxımdan təsir məhdud olsa da, istehlak davranışında dəyişiklik və premium seqmentin daralması mümkündür”.

**BAZARLARDA QİYMƏT DALĞALANMALARI**

İqtisadçı-ekspert Pərviz Heydərov bildirir ki, beynəlxalq bazarlarda qiymət artımı olsa da, onların Azərbaycandakı satış qiymətlərinə təsiri adətən mərhələli şəkildə müşahidə edilir: “Azərbaycana qəhvə məhsulları müxtəlif çeşidlərdə, fərqli ölkələrdən və istehsalçılardan idxal olunur. Bu səbəbdən, məsələn, Tramp Administrasiyasının müəyyən ölkələrə qarşı rüsum tətbiq etməsi kimi qərarların qəhvə qiymətlərinə Azərbaycanda birbaşa təsir göstərəcəyini söyləmək çətindir. Çünki yerli bazarda qəhvə məhsulları bir mənbədən deyil, fərqli regionlardan gətirilir və müxtəlif istehsal bazalarından alınan məhsullar mağazalarda paralel şəkildə satışdadır. Adi marketlərdə və ya böyük supermarket şəbəkələrində fərqli markalar, fərqli mənşə ölkələri və qiymət aralığına malik çoxsaylı qəhvə növləri görmək mümkündür. Həmçinin restoran və kafelərdə də qiymətlər fərqlidir və burada fərqi müəyyən edən əsas amillər məhsulun keyfiyyəti, istehsal ölkəsi, brend və maya dəyəridir. Bu səbəbdən, beynəlxalq bazarlarda müəyyən qiymət dalğalanmaları olsa da, onların Azərbaycandakı satış qiymətlərinə təsiri adətən mərhələli və məhdud olur”.

**“İSTEHLAKÇILAR ALTERNATİV BRENDLƏRƏ ÜSTÜNLÜK VERƏCƏK”**

İqtisadçı deyir ki, qəhvə strateji və ya ən zəruri qida məhsulları sırasına daxil deyil: “Yəni bu məhsul çörək, ət və ya un kimi kütləvi tələbat malları kateqoriyasına aid deyil. Bununla belə, Azərbaycanda qəhvə mədəniyyəti son illərdə nəzərəçarpacaq dərəcədə inkişaf edib və qəhvə istehlakı artmaqdadır. Qəhvə zövq və həyat tərzi elementi kimi qəbul olunur, bu da onun bazarını sabit saxlayır. Odur ki, qlobal bazarda baş verən qiymət artımları müəyyən qədər yerli bazara da təsir göstərə bilər, lakin bu, qəhvə istehlakçılarının sayını azaldacaq qədər ciddi səviyyədə olmayacaq. Əksinə, istehlakçılar daha münasib qiymətə alternativ brendlərə və ya yerli qablaşdırılmış məhsullara üstünlük verə bilərlər. Qəhvə bazarı Azərbaycanda nisbətən dayanıqlı və rəqabətli bir seqmentdir. İdxal mənbələrinin çoxşaxəliliyi və istehlakçıların brend seçimi baxımından elastikliyi bu bazarın xarici təsirlərə qarşı müəyyən müqavimət gücünə malik olmasına şərait yaradır”.

Məlumat üçün bildirək ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycana qəhvə idxalı 78,2 milyon dollar dəyərində olub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, hesabat dövründə ölkənin qəhvə idxalına çəkdiyi xərc ötən ilin eyni ayları ilə müqayisədə 9 milyon dollar çoxdur. Ötən ilin eyni dövründə Azərbaycana 69,2 milyon dollarlıq qəhvə idxal olunub.



Pərviz Heydərov

# TİBBİ SIĞORTADA YENİ MODEL

Kredit götürən şəxslərin işsiz qalmaqdan sığortalanması üzərində iş gedir, yəni iş tapanadək borcalanın kredit üzrə ödənişlərini sığorta şirkəti qarşılaya bilər. Hazırda bu məhsulun parametrləri müəyyən edilir, qaydalar hazırlanır.



Azərbaycanda icbari və könüllü tibbi sığortanı birləşdirəcək model hazırlanır. Bunu Azərbaycan Mərkəzi Bankının (AMB) Maliyyə Sektorunun Davamlı İnkişafı Departamentinin direktoru Rüstəm Tahirov Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham") təşkilatçılığı ilə Bakıda keçirilən "Bank və sığorta sektorlarının inteqrasiyası" mövzusunda tədbirdə bildirib.

### "BU MODEL BİR SIRA ÖLKƏLƏRDƏ MÖVCUDDUR"

R.Tahirov bildirib ki, bu model bir sıra ölkələrdə mövcuddur. "Hazırda biz onun tətbiqi üzərində çalışırıq. Məqsədimiz digər ölkələrin uğurlu təcrübəsinə uyğun olaraq icbari tibbi sığortanın imkanlarından istifadə etməklə sığorta şirkətlərinin risklərini azaltmaq, tibbi sığortaya əlçatanlığı artırmaqdır. Eyni zamanda tibbi sığorta haqqının daha əlçatan olması istiqamətində layihəmiz var. Düşünürük ki, bu layihə ilə də müəyyən nəticələrə gələ biləcəyik", - deyə o qeyd edib.

### KREDİT GÖTÜRƏN ŞƏXSLƏRLƏ BAĞLI YENİ SIĞORTA

AMB rəsmisi həmçinin bildirib ki, Azərbaycanda kredit götürən şəxslərin məşğulluğunu itirməsi hallarından sığortalanması üzərində iş aparılır. "Bildiyiniz kimi borcalanların həyatının, ölüm və əmək qabiliyyətinin itirilməsi hallarından sığortası tətbiq olunur. AMB bununla əlaqədar qaydalar qəbul edib və bu sığorta məhsulu uğurla tətbiq edilməkdədir. Eyni zamanda kredit götürən şəxslərin işsiz qalmaqdan sığortalanması üzərində iş gedir, yəni iş tapanadək borcalanın kredit üzrə ödənişlərini sığorta şirkəti qarşılaya bilər. Bu məhsulun parametrləri müəyyən edilir, qaydalar hazırlanır. Yaqin ki, yaxın aylarda bu məhsulla bağlı yenilikləri görə biləcəyik", - AMB-nin rəsmisi qeyd edib.

R.Tahirov əlavə edib ki, hazırda bu yeniliyin ancaq istehlak kreditləri üzrə tətbiqi nəzərdə tutulur: "Gələcəkdə isə bu proses biznes kreditlərinin əhatə olunması üzrə davam edəcək".

### BANKLARIN İMKANLARINDAN İSTİFADƏ EDİLƏCƏK

R.Tahirov qeyd edib ki, Azərbaycanda bank sektorunun imkanlarından istifadə edərək sığorta inklüzivliyinin artırılması əsas hədəflərdən biridir. Onun sözlərinə görə, 2023-cü ildə dünyada "Bancassurance" (bankdan asılı sığorta) bazarının ümumi məbləği 1,4 trilyon ABŞ dolları olub, 2030-cu ilə qədər isə 2 trilyon ABŞ dollarını ötəcəyi gözlənilir: "Bir sıra ölkələrdə "Bancassurance" daha sürətlə inkişaf edən seqmentdir. Bu seqmentin potensialından istifadə edilməsi bizim strateji hədəfimizdir. Nəzərə alaq ki, ölkəmizdə bank əsaslı maliyyə sistemi mövcuddur. Banklar dominant oyunçulardır. Maliyyə sektorunun 94%-i bank sektorundan ibarətdir".

# TRENDYOL İLİN "ƏFSANƏ GÜNLƏR"İNİ ELAN EDİB

Türkiyənin aparıcı e-ticarət platforması və dünyanın ən böyük elektron ticarət platformalarından biri Trendyol "Əfsanə günlər" kampaniyasına başlayıb.

27 noyabr-2 dekabr tarixlərini əhatə edəcək kampaniya müddətində məişət texnikası, ev və mətbəx ləvazimatları, geyim, kosmetika və baxım məhsulları da daxil olmaqla, 1500-dən çox kateqoriyada alış-veriş daha sərfəli olacaq.

Trendyol-un Azərbaycandakı istifadəçiləri "Əfsanə günlər"




müddətində NOYABR20 kodu ilə 20% endirim əldə edəcəklər. Həmçinin, müxtəlif mağazalar kampaniya günlərində mağazaya özəl xüsusi endirimlər, 20%, 30% və 40%-lik kuponlar və səbətə özəl endirimlər təqdim edəcək.

"Əfsanə günlər"in fürsətləri bununla bitmir. "Ultra Çarx", "Paylaş-Qazan" və digər interaktiv aksiyalar da müştərilərə əlavə kuponlar və bonuslar qazandıracaq.

Kampaniya müddətində Trendyol istifadəçiləri daha rahat ödəmə üsullarından yararlana biləcəklər. "Birbank" taksit kartı sahibləri ödəmələrini 2, 3, 6 hissəyə bölməklə və ya "İndi al, sonra ödə" imkanından istifadə etməklə həyata keçirə bilərlər.



# SOCAR yataqları rəqəmsal idarəetmə modelinə keçirir

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bütün yataqların idarə olunmasını tam rəqəmsal modellərə keçirir. "Report" xəbər verir ki, bunu SOCAR-ın rezervuarların inkişafı üzrə meneceri Murad Seyidov "SPE Xəzər Texniki Konfransı-2025" çərçivəsində keçirilən panel müzakirəsində deyib. Onun sözlərinə görə, SOCAR böyük və kiçik bütün yataqları tam struktur modellər, simulyasiya sistemləri və sahə inkişaf planları əsasında idarə etməyə qərar verib. M.Seyidov bu yanaşmanın şirkətin məlumat əsaslı qərarvermə modelinə keçidinin əsas mərhələsi hesab olunduğunu deyib: "Hər bir yataq üçün struktur modellər, statik və dinamik simulyasiyalar hazırlanacaq. Qərarlarımız yalnız real məlumatlara söykənəcək. Fundamental məlumat etibarlılığı təmin edildikdən sonra süni intellekt kimi daha qabaqcıl mərhələlərə keçəcəyik". SOCAR nümayəndəsi əlavə edib ki, şirkət uzun illər çox məhdud məlumatla yataqları idarə etsə də, çətin şəraitdə belə yüksək nəticələr əldə edə bilib: "SOCAR az məlumatla işləməyi bacaran və bu mühitdə dayanıqlılıq göstərən bir şirkətdir". Onun sözlərinə görə, SOCAR artıq "az məlumatdan - daha çox məlumata" keçid mərhələsindədir, lakin nə geniş büdcə, nə də əməliyyat imkanları bütün sahələr üzrə böyük həcmli məlumat toplamağa imkan verir.

M.Seyidov qeyd edib ki, SOCAR qərar yönümlü məlumat toplama və məlumat yönümlü qərarverməni paralel şəkildə tətbiq etməyə başlayıb: "Bizim üçün əsas olan qərara əsaslanan məlumat toplamaq və toplanmış məlumata əsaslanan qərar verməkdir. Hər bir məlumat isə yalnız toplandığı məqsədə uyğun istifadə olunmalıdır". O əlavə edib ki, SOCAR paralel olaraq laboratoriyaları, seysmik emal proseslərini və nümunə analiz mərkəzlərini də gücləndirir. "Hədəfimiz bütün yataqların idarə olunmasını vahid rəqəmsal ekosistemə keçirməkdir".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2451
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# AVTOMOBİLLƏRİN BAHALAŞMASI GÖZLƏNİLİR

**Gələn ildən birinci əl hibrid və elektrikli avtomobillərin bahalaşacağı gözlənilir. Ekspertlərin fikrincə, qiymət artımından sonra insanlar ikinci əl avtomobil bazarına yönələcəklər. Bu da işlənmiş avtomobillərə tələbatı artıracaq.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Gələn ildən Azərbaycanın avtomobil bazarında vergilərin və aksizin tətbiqi ilə bağlı yeniliklər gözlənilir. Məlum olduğu kimi, hazırda qüvvədə olan qaydalara görə, hibrid mühərrikli və elektriklə işləyən avtomobillər üçün əlavə dəyər vergisi və aksiz rüsumlarında güzəştlər tətbiq olunur. Bu imtiyazlar hibrid və elektrikli avtomobillərin bazarda daha münasib qiymətlərlə satılmasına imkan verir. Yeni ildən etibarən bu güzəştlər qüvvədən düşəcək və hibrid də, elektriklə işləyən avtomobillər də digər nəqliyyat vasitələri ilə eyni vergi rejiminə daxil ediləcək. Bununla yanaşı, idxal zamanı həm gömrük rüsumu, həm də ƏDV tətbiqi bərpa olunacaq. Güzəştlərin ləğvi artıq geniş müzakirələrə yol açıb. İndi hamını düşündürən əsas sual budur ki, güzəştlər ləğv edildikdən sonra avtomobil bazarında vəziyyət necə dəyişəcək? İnsanlar yenidən ikinci əl avtomobillərəmi yönələcəklər?

### "22 MİN MANATA OLAN MAŞINLARI ARTIQ 25 MİNƏ SATIRLAR"

Nəqliyyat eksperti Adil Nəbiyevin sözlərinə görə, bu dəyişikliklərdən sonra gələn ildən avtomobillərin qiymətlərində artım olduğu göz qabağındadır: "Hibrid avtomobillərlə bağlı hələ qərar təsdiqlənməmiş qiymətləri qaldırdılar. Hazırda əvvəlki qiymətlərlə müqayisədə avtomobillərin 2-3 min manat civarında bahalaşdığı hiss olunur. Avtomobil ticarətçiləri bu xəbərlər çıxana kimi ölkəyə 22 min manata gətirdikləri maşınları artıq 25 minə satırlar. Hətta qiymət artımı ikinci əl avtomobil bazarında da özünü göstərməkdədir. İşlənmiş avtomobillərin də qiyməti 1000-2000 manat civarında qalxıb. Elektrikli avtomobillərdə vəziyyət hələ ki əvvəlki kimi qalsa da, onların da bahalaşması qaçılmazdır. Nəzərə alaq ki, hələ 2026-cı il deyil və qiymətlər qalxıbsa, bu o deməkdir ki, gələcəyə doğru qiymətlər daha da artacaq. 2026-cı ildən sonra isə qiymətlərin kəskin artması gözlənilir".



Foto: Rüfət Mikayılov/Global Photostock

## "Ümumi avtomobil bazarına da öz təsirini göstərəcək"

İqtisadçı-ekspert Asif İbrahimov da indidən bazarda avtomobil qiymətlərinin yüksəldiyini təsdiq edir: "Ölkəmizə sürətlə hibrid və elektromobil avtomobillər daxil oldu. Bu proses bütün dünyada gedir. Daha ucuz başa gəldiyi üçün insanlar bu avtomobillərə yönəldilər. Ölkəmizdə də həm qiymətlərinin ucuz olması, həm gətirilmə şərtlərinin asanlığı, ƏDV olmaması, rəsmi mağazalardan alarkən kredit şərtlərinin əlverişli olması bu bazarı canlandırdı. Lakin artıq yeni ildən bu avtomobillər üçün olan güzəştlər ləğv edilir. Güzəştlər hələ ləğv edilməyib, amma qiymətlərin dəyişdiyini müşahidə edə bilirik. İstehlakçılar artıq qiymətlərin 4-5 min civarında bahalaşdığını bildirirlər".

A.İbrahimovun sözlərinə görə, ümumi avtomobil bazarında qiymətlər kökündən formalaşacaq: "Hibrid və elektromobillər ölkəyə gətirildikdən bəri ənənəvi avtomobil bazarında qiymət enmələri müşahidə edildi. Düşünürəm ki, güzəştlərin ləğvindən sonra onların da qiymətində müəyyən dəyişiklik baş verəcək. Bahalaşma olacağı gözlənilir. Qiymətlərin bahalaşması ümumi avtomobil bazarına da öz təsirini göstərəcək".

### "KREDİT ŞƏRTLƏRİ DƏYİŞƏCƏK"

İqtisadçının fikrincə, qiymətlər nə qədər bahalaşsa da, bu avtomobillərə olan tələb tamamilə azalmayacaq: "Amma düşünmürəm ki, güzəştlərin ləğvi bu avtomobillərin gətirilməsini tamamilə dayandırsın. Çünki istehlakçılar qiymətlər yüksəlsə də, komfort üçün bu avtomobilləri seçməyə davam edəcəklər. Alıcılıq azala bilər, amma tamamilə dayanması gözlənilmir. Bu avtomobillərlə bağlı kredit şərtlərində müəyyən dəyişikliklər ola bilər".

## Durğunluq da aradan qalxacaq

**A.Nəbiyevin fikrincə, indidən ikinci əl avtomobil bazarına meyillənmə mövcuddur: "İnsanların Çin maşınlarına bu qədər həvəs göstərməsinin səbəbi onların nisbətən ucuz olması idi. 30 min manata işlənmiş mexaniki avtomobili alırdısa, həmin qiymətə daha komfort Çin maşını sifariş etmək mümkün idi. Artıq bu avtomobillərin bazarı da formalaşdı. İkinci əl maşınlar da bazara çıxır. Hətta alıcıları da var. Düşünürəm ki, dəyişikliklərdən sonra ikinci əl bazarına tələbat daha da artacaq. Bir neçə aydan sonra qiymətlərdə xeyli fərq olacaq. Hətta yeni avtomobillərlə ikinci əl avtomobillərin satışı bir müddət bərabər səviyyədə olacaq".**

**Ekspert düşünür ki, qiymət artımından sonra ənənəvi avtomobillərin bazarı canlanacaq: "Hibrid avtomobillərin qiymətində yüksəlmə baş verdikdən sonra ənənəvi avtomobillərə də maraq arta bilər. Halbuki son vaxtlar insanların həmin avtomobillərə marağı ölmüşdü".**



Adil Nəbiyev



Asif İbrahimov

VƏTƏNDAŞIN VƏFATINDAN SONRA PENSİYASININ AİLƏ ÜZVLƏRİNƏ ÖDƏNİLMƏSİ REALLAŞACAQ?

# VƏTƏNDAŞLAR ÜÇÜN ALTERNATİV KAPİTAL

Parlamentin plenar iclasında pensiyada varislik məsələsi ilə bağlı səslənən fikirlər uzun müddətdir ki, müzakirə olunan, səngiyən məsələni yenidən gündəmə gətirib. Mütəxəssislər pensiya təminatı sahəsində islahatlara ehtiyac olduğu qənaətindədirlər.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Özəl pensiya fondlarının yaradılması, ailə başçısının vəfatından sonra pensiya kapitalının ailə üzvlərinə ödənilməsi ilə bağlı məsələ yenidən gündəmə gəlib.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafanın parlamentin plenar iclasında pensiyada varislik məsələsi ilə bağlı səsləndirdiyi fikirlər uzun müddətdir ki müzakirə olunan, səngiyən, yenidən gündəmə gələn məsələ ətrafında hansı addımların atılmalı olduğuna diqqət yönəldib. Deputat məsələnin cəmiyyətin əsas gözləntilərindən biri olduğunu vurğulayaraq, pensiya təminatı sahəsində islahatlara ehtiyac olduğunu qeyd edib: "Ailənin tək işləyən üzvü uzun illər ərzində sığorta haqqı ödəsə də, pensiya yaşına çatmadan vəfat etdikdə onun ailəsi ciddi sosial çətinliklərlə üzləşir: "Bu cür halların qarşısını almaq üçün sistemli yanaşmaya və beynəlxalq təcrübəyə uyğun addımlara ehtiyac duyulur".



Fazil Mustafa

Millət vəkili qeyd edib ki, özəl sektorda çalışanlar arasında bu sahədə aydınlıq və sabitlik istəyi artmaqdadır. Bu istiqamətdə özəl pensiya fondlarının yaradılması ilə bağlı pilot layihələrin həyata keçirilməsi məsələyə müsbət təsir edə bilər. Bu yanaşma, vətəndaşların daha çox stimullaşaraq pensiya sisteminə vəsait ödəməsinə də yol aça bilər.

### HÜQUQİ BAZA FORMALAŞDIRILMALIDIR

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov da özəl pensiya fondlarının yaradılmasını aktual məsələ hesab edir: "Belə fondlar yaradılarsa vətəndaşlara pensiya kapitalının yığılmasında alternativlər təklif olunacaq. Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətinin dəqiq çərçivələri məlumdur. Yəni pensiya kapitalı yığılır və vətəndaşın pensiya hüququ yarananda həmin kapitala uyğun şəkildə pensiya təyin olunaraq ödənişlər həyata keçirilir. Özəl pensiya fondları isə vətəndaşlara alternativlər təklif edə bilər. Bu alternativlər müəyyən yaş həddindən sonra vətəndaşın hesabında yığılmış kapitalı bir yerdə alınaraq hər hansı bir investisiya layihəsinə yerləşdirmək imkanı verilə bilər. Bu da müəyyən yaş həddində olan şəxsin birdəfəlik olaraq böyük bir məbləği əldə edilməsinə və istədiyi istiqamətdə xərcləməsinə imkanın yaradılması deməkdir".

### "BAŞQA ÖLKƏLƏRDƏKİ FONDLARIN FƏALİYYƏTİNİ DƏQİQ ÖYRƏNMƏLİYİK"

Deputatın fikrincə, özəl pensiya fondları həm də pensiya kapitalını yığmış şəxs vaxtından əvvəl dünyasını dəyişərsə, yığılmış kapitalı onun vərəsələrinə qaytarmaq məsələsini də həll edə bilər: "Təbii ki, özəl pensiya fondları Dövlət Sosial Müdafiə Fondu ilə paralel fəaliyyət göstərməlidir. Çünki Dövlət Sosial Müdafiə Fondu hər bir vətəndaşın sosial müdafiəsinin təminatçısıdır.

Özəl pensiya fondları inkişaf etmiş ölkələrdə fəaliyyət göstərir. Düşünürəm ki, biz həmin ölkələrdəki fondların fəaliyyətini dəqiq öyrənməliyik. Əlbəttə ki, özəl pensiya fondlarının yaradılması üçün qanunvericilik bazası da yaradılmalıdır".




## "BU, GİZLİ İQTİSADİYYATDAN ÇIXIŞ YOLU OLA BİLƏR"

İqtisadçı Fuad İbrahimov hesab edir ki, özəl pensiya fondlarının yaradılması nəzəri olaraq mümkündür. Ancaq bunun üçün hazırkı qanunvericilik bazasına əl gəzdirilməlidir: "Bunu həyata keçirmək üçün Azərbaycanın kifayət qədər maddi dayanıqlığı var. Sağlam iqtisadiyyatda və münasibətlərdə bunu etmək mümkündür". İqtisadçı bildirir ki, ilk növbədə özəl fondların yaradılması prosesi həyata keçirilməlidir: "Sonra həmin özəl fondlar üçün mütləq şəkildə münbit mühit formalaşdırılmalıdır. Pul dövr etməli və qazancın üstünə qazanc gətirməlidir ki, zamanı gələndə insanların pulu verilə bilsin". İqtisadçı bildirir ki, müəyyən dövrdən sonra yığılan vəsaitin vətəndaşın özünə verilməsi də indiki qanunvericilik bazası ilə mümkün deyil: "Amma düşünürəm ki, hökumət dəyişikliklər etməklə bu istiqamətdə addım ata bilər. Burada əsas məsələ dövlətin maddi durumudur". F.İbrahimovun fikrincə, özəl pensiya fondları yaradılarsa, hər bir vətəndaş fəaliyyətini rəsmiləşdirməkdə maraqlı olacaq: "Vətəndaş görsə ki, hökumət pensiya kapitalında yığılmış vəsaiti onun özünə və ya dünyasını dəyişəndən sonra ailəsinə vermə imkanları yaradır, onda çalışacaq ki, fəaliyyəti rəsmiləşdirsin. Amma vətəndaş görəndə ki, məsələn, atası 50-60 il işləyib, amma pensiya yaşına çatmamış dünyasını dəyişib, pensiya kapitalında yığılan pula da əli çatmır, onda fəaliyyətinin rəsmiləməsinə, sosial ödənişlərin edilməsinə mənfi yanaşacaq. Söhbət sosialyönümlü dövlətdən gedirsə, bu addımı atmaq, insanlarda bu məsləyə maraq yaratmaq lazımdır".

### ÖZƏL PENSİYA FONDLARI ƏKSƏR AVROPA ÖLKƏLƏRİNDƏ MÖVCUDDUR

Qeyd edək ki, özəl pensiya fondları əksər inkişaf etmiş ölkələrdə mövcuddur. Məsələn, Böyük Britaniyada müstəqil investisiya qoyuluşuna imkan verən SIPP kimi özəl pensiya sistemi var.

ABŞ-də dövlət və özəl pensiya sistemlərinin kombinasiyası mövcuddur.

İsveçdə dövlət və özəl pensiya sistemləri fərqli şəkildə fəaliyyət göstərə bilər.

Sinqapurda da həm dövlət, həm də özəl pensiya sistemləri inkişaf edib.



Fuad İbrahimov

# HƏM SATIRIQ, HƏM DƏ ALIRIQ?

Yerli nar əsasən payız mövsümündə bazarlara çıxarılır. Həmin dövrdə ixrac da artır. Amma digər aylarda bazarda boşluq yaranır və bazarlarda idxal edilən nar növlərini də görürük.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bu ilin yanvar-avqust aylarında Azərbaycan 4,4 milyon ABŞ dolları dəyərində 5 163 ton nar ixrac edib. Bu, 2024-cü ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 32 faiz, kəmiyyət olaraq - 38 faiz çoxdur. Hesabat dövründə Azərbaycan 146 min ABŞ dolları dəyərində 71,2 ton nar idxal edib. Maraqlıdır, Azərbaycan nar ixracını artırsa da, özü də xaricdən nar alır. Bunun səbəbi nədir?

### MÖVSÜMDƏ ÖZÜMÜZÜ TƏMİN EDİRİK, AMMA...

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, nar Azərbaycanın tipik payız məhsuludur: "Yerli istehsal əsasən sentyabr-noyabr aylarında ən yüksək həddə çatır. Bu aylarda məhsul bolluğu səbəbindən həm daxili bazar tam təmin olunur, həm də ixrac üçün kifayət qədər potensial yaranır. Məhz həmin dövrdə ixracın böyük hissəsi həyata keçirilir. Bunlar həm mövsümi amillər, həm də bazar tələbatı ilə bağlıdır".

N.Əzizli bildirdi ki, mövsüm başa çatdıqdan sonra idxala ehtiyac duyuruq: "Digər aylarda bazarda boşluq yaranır. Yerli məhsul tədricən bazardan çəkilir, anbarlarda qalan həcmdən istifadə olunur, lakin bu, bütün ilin tələbatını qarşılamır. Mövsümdənkənar dövrdə bazarda təchizat boşluğu yarandığı üçün idxal qaçılmazdır. Bir çox ölkələr – xüsusilə İran, Türkiyə və Mərkəzi Asiya dövlətləri həmin aylarda Azərbaycan bazarına rahatlıqla təklif edə bilirlər".



Nahid Əzizli

## "İSTEHLAKÇILAR XARİCİ SORTLARA ÜSTÜNLÜK VERİRLƏR"

Müsahibimizin fikrincə, Azərbaycanın ixrac etdiyi nar növləri ilə daxili bazarda tələb olunan sortlar eyni deyil: "Azərbaycanın ixrac etdiyi nar sortları ilə daxili bazarda yüksək tələbat olan nar növləri arasında fərq var. İxrac üçün əsasən qalın qabıqlı, daşınmaya davamlı, iri və qırmızı rəngli sortlar seçilir. Daxili bazarda isə bəzi istehlakçılar daha şirəli, yumşaq toxumlu və ya dad fərqləri olan başqa ölkə sortlarına üstünlük verirlər. Bəzi istehlakçılar başqa ölkələrin sortlarına üstünlük verdiyi üçün idxal davam edir".

N.Əzizlinin sözlərinə görə, idxal olmasa bazarda qiymətlər bahalaşa bilər: "İllik nar istehsalımız təxminən 190–195 min ton təşkil edir. Bu həcmdən cəmi 15–18 faiz ixraca gedir. Bu o deməkdir ki, Azərbaycan öz tələbatını böyük ölçüdə təmin edən ölkədir, yəni nar üzrə özünütəminetmə səviyyəsi 80 faizdən yuxarıdır. Əsas iqtisadi səbəb bazarın sabit saxlanmasıdır. Xaricdən idxal edilən nar bazarda rəqabəti qoruyur və qiymətlərin normadan artıq artmasının qarşısını alır".

### "İSTEHSAL ARTDIQCA, İDXAL AZALACAQ"

Ekspertin fikrincə, emal müəssisələri üçün də müəyyən növ xammal tələb oluna bilər ki, həmin çeşid yalnız xarici bazardan əldə edilir: "Bu da idxalın az da olsa davam etməsinə təsir edən amillərdən biridir. İstehsalın artması, yeni bağların salınması və emal gücünün genişlənməsi gələcəkdə həm ixrac payını artıracaq, həm də mövsümdənkənar dövrdə idxal asılılığını daha da azaldacaq".



## "YIĞILAN NARIN BÖYÜK BİR QİSMİ İXRAC OLUNUR"

İqtisadçı Elçin Əkbərov da düşünür ki, nar ixracının və idxalının eyni vaxtda mövcud olmasının bir neçə əsas səbəbi var: "Nar əsasən payızda toplanır. Bu zaman pik həddə ixrac baş verir. Soyuducu anbarları, uzunmüddətli saxlama infrastrukturu və narın da uzunmüddətli saxlanma imkanları məhdud olduğu üçün yığılan narın böyük bir qismi ixrac olunur və uzunmüddətli dövr üçün ölkədaxili istehlaka saxlanılmır. Beləliklə, daxili bazarda qiymətli sortların hamısı mövcud olmaya bilər və müəyyən çeşidlər idxalla tamamlanır".

E.Əkbərovun sözlərinə görə, daxili istehlakçılar və emal müəssisələri ixrac üçün nəzərdə tutulmayan sortlara ehtiyac duyurlar: "Nar emalı (şirə, konsentrat və s.) müəssisələri tələbi yüksəldir və istehsalçı istehsal etdiyi narın bir hissəsini ixrac edir, qalan hissə isə istehsalata yönləndirilir".

### "UZUNMÜDDƏTLİ SAXLAMA VƏ LOGİSTİK İMKANLARI YAXŞILAŞDIRILMALIDIR"

İqtisadçı bildirdi ki, uzunmüddətli saxlama və logistik imkanlarının yaxşılaşdırılması vacibdir ki, mövsümi ixrac daha sabit və az riskli olsun. "Made in Azerbaijan" narının beynəlxalq səviyyədə rəqabət qabiliyyətini saxlamaq üçün keyfiyyət standartları, qida təhlükəsizliyi, sertifikatlaşma sistemləri mühüm rol oynayacaq: "Artıq nar istehsalçıları arasında da beynəlxalq Global GAP sertifikasiyasının təşkil olunması ixracı diversifikasiya etməyə, yeni bazarlara çıxışı təmin etməyə imkan verəcək. İxracın artımı daxili bazarı sıxışdırarsa, qiymətlərdə oynama və daxili istehlakçıların müraciət etdiyi çeşidlərin azalması riski mümkündür".



Elçin Əkbərov

# AZƏRBAYCAN SƏHİYYƏSİNDƏ YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI

Meyitdən orqan nəqli tibbi baxımdan son dərəcə mürəkkəb prosesdir. Əsas faktorlar orqan, toxuma və qan qrupu uyğunluğudur ki, bunlar transplantasiyanın uğuruna birbaşa təsir edir.



**544 nəfər könüllü donor olmaq istəyir**

**SEVİNC ABBASOVA**

Azərbaycanda ilk dəfə meyitdən orqan köçürülməsi tibbin inkişafında mühüm mərhələ kimi qiymətləndirilir. Bu hadisə təkcə səhiyyə sistemimiz üçün deyil, həm də cəmiyyətin etik, hüquqi və sosial dəyərləri baxımından yeni düşüncə tərzinin formalaşması deməkdir. Lakin bu uğurlu təcrübə bir sıra yeni məsələlərin və təkmilləşdirilməsinə ehtiyac duyulan istiqamətlərin gündəmə gəlməsinə səbəb olub. Bəs, görəsən, bu yöndə hansı addımların atılmasına ehtiyac var?

Azərbaycanda "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun 2009-cu ildə qüvvəyə minib. Həmin ildən indiyədək ölümündən sonra könüllü donor olmaq istəyənlərin sayı 544 nəfərə çatıb. Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin məlumatına görə, 2025-ci ilin ilk səkkiz ayında ölkədə 203 orqan köçürməsi icra olunub. Ən çox ehtiyac duyulan orqan böyrək olduğu üçün sözügedən dövrdə ümumilikdə 60 əməliyyat aparılıb. Onlardan ikisi uşaq, 58-i böyüklərdə icra olunub. Qaraciyər transplantasiyası üzrə ümumilikdə 36 əməliyyat aparılıb. Onlardan dördü uşaq, 32-si böyüklərdə icra olunub. Buynuz qişa transplantasiyası üzrə 85 əməliyyat aparılıb. Onlardan biri uşaq, 84-ü böyüklərdə icra olunub. Ən az icra olunan sümük iliyi transplantasiyası üzrə isə 22 əməliyyat baş tutub. Onlardan 21-i uşaq, biri isə böyüklərdə icra olunub.

**MİNLƏRLƏ XƏSTƏ ORQAN NƏQLİ GÖZLƏYİR**

Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin həkimi Mircəlal Kazımi bildirir ki, 2008-ci ilin dekabrından indiyədək onların komandası 1500-ə yaxın insan üzərində böyrək və qaraciyər transplantasiyası həyata keçirib. Lakin bu ilin fevral ayının 6-da regionda və Qafqazda ilk dəfə meyit orqanlarından istifadə olunaraq qaraciyər transplantasiyası icra edilib. Bu günə qədər altı beyin ölümü baş vermiş insandan orqanlar alınaraq qaraciyər, böyrək və gözün buynuz qişası transplantasiyası reallaşıb.



Mircəlal Kazımi



Tariyel Nadirov

## Donorluq razılığı üçün üç vacib prinsip

M. Kazımi qeyd edir ki, bu, Azərbaycan səhiyyəsində yeni bir mərhələnin başlanğıcıdır: "Beyin ölümü baş vermiş insanlardan orqan transplantasiyası orqan çatışmazlığından əziyyət çəkən minlərlə insanın sağlamlığına qovuşması üçün həyati əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, qeyd etdiyim 1500-ə yaxın əməliyyat qaraciyər və böyrək transplantasiyasıdır. Amma canlı donor şansı olmayan ürək, ağciyər, mədəaltı vəzi kimi orqanların, gözün buynuz qişası kimi üzvlərin transplantasiyasına yalnız meyit orqanları lazımdır. Eyni zamanda, qaraciyər və böyrək çatışmazlığından əziyyət çəkən minlərlə insan var ki, onların canlı donorları praktiki, tibbi olaraq yoxdur".

M. Kazımi donorların tibbi və şəxsi məlumatlarının məxfiliyinin qorunduğunu da diqqətə çatdırır: "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin koordinatorları bu işlə məşğuldur. Mənim özümdə də donorların kimliyi haqqında məlumat yoxdur. Bu, məxfidir. Donorluq üçün müraciət elektron qaydada Asan İmza vasitəsilə aparılır".

Həkim Azərbaycanda donorluq razılığının üç prinsipini də açıqlayıb: "Birincisi, şəxs sağlığında razılığını rəsmi şəkildə bəyan edərsə, beyin ölümü baş verdikdən sonra orqanların alınması üçün əlavə icazəyə ehtiyac olmur. İkincisi, şəxs orqanını bağışlamayacağını rəsmi şəkildə bəyan edərsə, beyin ölümü baş verdikdə ailəsi orqanları bağışlasa belə, orqanlar alınmır. Üçüncüsü, əgər şəxs sağlığında heç bir bəyanat verməyibsə, həmin şəxsin ailəsindən icazə alınır".

**BƏZİ HÜQUQİ DETALLAR TAM TƏKMİLLƏŞMƏYİB**

Mərkəzi Klinik Xəstəxananın Orqan və Toxumaların transplantasiyası şöbəsinin həkimi Tariyel Nadirovun sözlərinə görə, orqan transplantasiyası əməliyyatları iki mənbədən icra olunur: "Canlı donor və meyitdən orqan köçürülməsi. Meyitdən transplantasiya zamanı yalnız beyin ölümü baş vermiş şəxslərin orqanları götürülür".

Həkim deyir ki, bu sahədə etik və hüquqi məsələlər xüsusi önəm daşıyır: "Meyitdən orqan götürülməsi üçün ən vacib şərt donorun razılığıdır. Eyni zamanda, hüquqi məsələlər də diqqətdən kənarda qala bilməz. Azərbaycanda orqan nəqli ilə bağlı qanunvericilik mövcuddur, lakin bəzi detallar hələ tam həll edilməyib. Bunlar arasında beyin ölümünün hüquqi statusunun aydınlaşdırılması, donor razılığının kim tərəfindən və necə təsdiq olunması, orqanların paylanması sistemində şəffaflıq və ədalətlilik prinsiplərinin qorunması və s. məsələlər yer alır".

Mütəxəssis onu da qeyd edir ki, meyitdən orqan nəqli tibbi baxımdan son dərəcə mürəkkəb prosesdir. Əsas faktorlar orqan, toxuma və qan qrupu uyğunluğudur ki, bunlar transplantasiyanın uğuruna birbaşa təsir edir: "Burada zaman da böyük rol oynayır. Qaraciyər üçün 12 saat, böyrək üçün 24 saat, ürək üçün isə yalnız altı saat ərzində köçürülmə həyata keçirilməlidir".

**MAARİFLƏNDİRMƏ TƏDBİRLƏRİNƏ EHTİYAC VAR**

T.Nadirovun fikrincə, mövcud problemlərin həlli üçün ən vacib addım cəmiyyətin maarifləndirilməsidir: "İnsanlara orqan nəqlinin həyatı necə xilas etdiyini izah etmək lazımdır. Dini baxımdan da orqan donorluğu vacibdir. İslamda bir insanın digərinə həyat bağışlaması böyük savab hesab olunur. Bununla paralel qanunvericilik də təkmilləşdirilməli, beyin ölümü anlayışı və donor razılığı ilə bağlı hüquqi mexanizmlər aydın şəkildə müəyyən edilməlidir. Ümumilikdə, dini liderlərin dəstəyi, tibb sisteminin gücləndirilməsi və milli donor reyestrinin yaradılması problemlərin həllində önəmli rol oynayır".

# "BU KONSERT MƏNİM ÜÇÜN HESABAT İDİ"







Çinarə Məlikzadə: "Məncə, risk sənətçinin yanındakı ən sadiq dostdur. Risk etməyən sənətçi özünü heç vaxt tanımır. Karyeram boyu həmişə çətin olanı seçmişəm. Çünki rahatlıq insanı böyütmür".

XƏYALƏ RƏİS

Parlaq və özünəməxsus səsi olan Çinarə Məlikzadə bu günlərdə "Gedək üzü küləyə" adlı konserti ilə dinləyicilərinə unudulmaz anlar yaşatdı. Güclü səsi, emosional ifası, səhnədəki enerjisi və səmimiyyəti ilə yadda qalan sənətçi konsertdən dərhal sonra suallarımızı cavablandırdı.

### "O SƏHNƏ SƏNƏTÇİNİN TƏK SƏSİNİ YOX, ÜRƏYİNİ DƏ ÖLÇÜR"

**● Çinarə xanım, konsertinizin ideyası necə yaranmışdı? Bu addımı atmağın vaxtının çatdığını nə zaman hiss etdiniz?**

● Sənət adamının daxilində qəribə bir səs olur. O səs səni heç vaxt aldatmır. Hansı addımı nə vaxt atmalı olduğunu ən doğru şəkildə deyir. Mən uzun illərdir həm Azərbaycanda, həm də Türkiyədə səhnədəyəm. Hər iki ölkədə tamaşaçının sevgisini görmüşəm, hiss etmişəm. O sevgi mənim üçün həm yol, həm işıq olub. Amma Heydər Əliyev Sarayı tamam başqa məsuliyyətdir. Çünki oraya yalnız ifa üçün yox, həm də özünü sınamaq üçün çıxırsan. O səhnə sənətçinin tək səsini yox, ürəyini də ölçür. Düzünü desəm, uzun müddət "bu addıma hazırammı?" sualı ilə yaşamışam. Bir gün özümü dinlədim. Bu konsert mənim üçün sadəcə bir tədbir yox, illərin zəhmətinin səsinin eşidildiyi bir an idi. Tamaşaçı sevgisi isə bu səsin nə qədər doğru olduğunu göstərdi.

**● Niyə məhz "Gedək üzü küləyə"?**

● Tamaşaçılar məni məhz "Gedək üzü küləyə" ifamla tanımışdılar. Bundan əlavə, bu konsert həyatımda elə bir mərhələ idi ki, artıq heç nədən çəkinmədən özüm kimi olmağın vaxtı gəlmişdi. İstəyirdim ki, tamaşaçı da o enerjini hiss etsin - çətinliyə doğru getmək, qorxunu keçmək, özünlə barışmaq enerjisini ötürməyə çalışırdım.

### "TAMAŞAÇI QARŞISINDA GİZLƏDƏCƏYİM HEÇ NƏ OLMADI"

**● Bu konserti yaradıcılığınızın bir mərhələsinin yekunu kimi dəyərləndirmək olarmı?**

● Əlbəttə. Hətta deyərdim ki, bu konsert mənim üçün bir kitabın son səhifəsi və eyni zamanda yeni kitabın ilk cümləsi idi. İllərdir topladığım təcrübə, səsimdəki dəyişiklik, daxilimdə böyüyən qadın - hamısı o axşama sığmışdı. Mən səhnəyə təkcə mahnılarla deyil, həm də yaşadıqlarımın, keçdiklərimin yükü ilə çıxdım. Tamaşaçı qarşısında gizlədəcəyim heç nə olmadı.

**● Ölkənin ən böyük səhnəsində solo konsert vermək sənətçi üçün riskdir...**

● Məncə, risk sənətçinin yanındakı ən sadiq dostdur. Risk etməyən sənətçi özünü heç vaxt tanımır. Karyeram boyu həmişə çətin olanı seçmişəm. Çünki rahatlıq insanı böyütmür.

Bu konsert də böyük bir risk idi. Hüquqi, təşkilati tərəfi, bilet satışı, tamaşaçının gözləntisi... Bunların hamısı sənətçini sınağa çəkir.



## "Bir qədər sakitlik istəyirəm"

**● Qarşıda sizi hansı işlər gözləyir?**

● Açığı, konsertdən sonra bir qədər sakitlik istəyirəm. Bu ölçüdə proqram böyük enerji, hazırlıq tələb edir. Səhnə bitən kimi insanın içində həm boşalma, həm də qəribə bir rahatlıq olur. Ona görə əvvəlcə komandamla birlikdə həm uğurları, həm də üzərində işləməli olduğumuz detalları qiymətləndirməyi düşünürəm. Amma uzun fasilə olmayacaq. Artıq yeni mahnılar üzərində iş gedir, bəzi aranjimanlar tamamlanmaq üzrədir. Bir neçə duet təklifi var, onları da dəyərləndiririk. Üstəlik, Türkiyədə yenidən bir neçə böyük layihə planlaşdırılır, bununla bağlı görüşlərim olacaq. Mənim üçün sənət dayanmır, sadəcə forma dəyişir. Bu konsert bir finiş deyil, əksinə, yeni mərhələnin startıdır.

**● Keçən il Azərbaycan və Türkiyə prezidentləri ilə görüşünüz böyük rezonans yaratmışdı. Bu hadisə sizin üçün nə ifadə edirdi?**

● Bu görüşlər mənim üçün həyatda qazandığım ən böyük etimaddır. O anlarda sən təkcə sənətçi deyil, ölkənin təmsilçisisən. Bu, çox böyük məsuliyyət gətirir. Səhnədə illərlə çəkdiyim zəhmətin qiymətləndirildiyini hiss etmək isə insanın içində həm rahatlıq, həm də daha çox çalışma arzusu yaradır.

## "Sənət qısqanclıqdan uzaq bir yer deyil"

**● Uzun illər çalışıb bu səviyyəyə çata bilməyən həmkarlarınızın qısqanclığı ilə qarşılaşdığınız olurmu?**

● Sənət qısqanclıqdan uzaq yer deyil. Amma mən enerjimi buna sərf etmirəm. Çünki hər kəsin öz yolu var. Mən kiminsə yerinə keçməmişəm, heç kimin yolunu bağlamamışam. Sevincimi bölənlərə sevgim var. Sevinməyənlərə isə can sağlığı arzulayıram. Mənim işim yaratmaqdır - qalanını zaman həll edir.

**● "Azərbaycan" mahnısı sizin karyeranızda ciddi dönüş yaratdı.**

● "Azərbaycan" mahnısı mənim üçün bir musiqi əsəri deyil - məsuliyyətdir. Bu mahnının ruhu çox ağırdır, oxuyanda o yükü çiyinlərində hiss etməlisən.

Bu mahnı mənim səsimlə yayıldıqca çoxlu insan yazdı, danışdı. Bu, mənə yeni auditoriya qazandırdı - daha emosional, daha dərin, daha səmimi insanlar.

**● "Azərbaycan"dan sonra tamaşaçı sizdən daha çox vətənpərvərlik ruhlu mahnılar gözləyirdi. Amma siz lirik ifalara da üstünlük verirsiniz.**

● Çünki yalnız Vətən sevgisi ilə yaşayan qadın deyiləm. İçimdə sevən də var, darıxan da, qırılan da, bağışlayan da. Bütün duyğularımı musiqiyə daşıyıram. Vətən sevgisi çox böyük duyğudur, amma insan sevgisi də kiçik deyil. Bəzən bir lirik mahnı insanın daxilinə elə toxunur ki, illərlə unudulmur.

**● Enerjili və çılğın biri kimi tanınırsınız, amma səhnədə daha çox nakam sevgi mövzulu mahnıları duyğulu ifa edirsiniz. Bunun sirri nədir?**

● Məncə, daxili balansım budur. Həyatda çox gülən, çox danışan, çox enerjili biriyəm. Amma səhnə tam başqa yerdir. Səhnəyə çıxanda içimdəki başqa bir Çinarə oyanır - daha sakit, daha duyğulu, daha həssas olan. Səhnədə heç nə gizlədə bilmirəm. Nə hiss edirəmsə, o andaca səsimə keçir. Tamaşaçı ilə aramızdakı bağ da elə buradan doğur.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
29 NOYABR ŞƏNBƏ 2025



# QADIN ŞAHMATÇILARIMIZIN LİNARES UĞURU

Azərbaycan qadın şahmatı yığması tarixində ilk dəfə dünya çempionatının gümüş medallarını qazandı. Bu, şübhəsiz, qadın şahmatımızın beynəlxalq arenadakı nüfuzunu kəskin şəkildə artırır.

İspaniyanın Linares şəhərində keçirilən FIDE Qadınlar arasında Komanda Dünya Çempionatı Azərbaycan şahmatı üçün yaddaşlara həkk olunacaq nəticə ilə başa çatdı. Yığmamız mötəbər yarışda finala yüksələrək tarixində ilk dəfə dünya çempionatının gümüş medallarını qazandı.

### FİNALA QƏDƏR AĞIR YOL

Azərbaycanı turnirdə Ülviyyə Fətəliyeva, Gövhər Beydullayeva, Gülnar Məmmədova, Xanım Balacayeva və Ayan Allahverdiyeva təmsil etdilər. Komandanın kapitanı İlahə Qədimova, məşqçiləri isə Nicat Abasov və Qədir Hüseynov idi. Tərkib həm təcrübəli, həm də gənc, perspektivli fiqurlardan ibarət idi və nəticə göstərdi ki, uğuru məhz komanda balansı gətirdi.

Azərbaycan yığması yarışa A qrupunda start verdi. Komanda ilk qarşılaşmadan iddiasını ortaya qoydu. Peru üzərində 3:1 hesablı qələbə yaxşı başlanğıc idi. Növbəti turda Qazaxıstana minimal fərqli məğlubiyyət komandanın toparlanmasına mane olmadı. Qrup mərhələsini adlayan millimizi pley-offda daha gərgin görüşlər gözləyirdi.



¼ finalda komandamızın rəqibi güclü Gürcüstan kollektivi idi. İlk oyunda qalib müəyyənləşməsə də, ikinci qarşılaşmada 2,5:1,5 üstün olan yığmamız dueli xeyrinə başa vurmağı bacardı. Finalın bir addımlığında isə rəqib yenidən Qazaxıstan komandası oldu. Bu dəfə yığmamız istər taktiki hazırlıq, istərsə də psixoloji möhkəmlik baxımından mükəmməl oyun nümayiş etdirdi. Uzun partiyalar davam edir və bərabərlik pozulmurdu. İlk iki oyun heç-heçə başa çatdı. Qalib yalnız blitsdə müəyyənləşdi. Burada 3:1 üstün olan millimiz tarixində ilk dəfə finala vəsiqə əldə etdi.



## QİYMƏTLİ GÜMÜŞ

Adətən, idman yarışlarında "bürünc" "gümüş"dən daha böyük sevinc gətirir. Bu, onunla əlaqələndirilir ki, bürünc medal uğrunda görüşdə qalib gələn həmin mükafata sahib çıxır, "gümüş"ü isə finalın məğlub tərəfinə verirlər. Lakin bu dəfə komandanın gümüş medalına fəxrlə sevinmək olar. Çünki qadın şahmatımız tarixində heç vaxt belə nəticə olmamışdı.

Dünya çempionatının finalında rəqib Beynəlxalq Şahmat Federasiyası – FIDE-nin bayrağı altında yarışan güclü qrossmeysterlərdən ibarət komanda idi. Rəqib həm heyətinin gücü, həm də turnirdə keçdiyi yol baxımından favorit sayılırdı. İlk görüş 3:1 hesabı ilə rəqibin xeyrinə başa çatdı. Azərbaycan şahmatçıları ikinci oyunda daha inamlı çıxış etsələr də, bu dəfə qarşılaşma 1.5:2.5 hesablı məğlubiyyətimizlə yekunlaşdı və nəticədə FIDE komandası çempion oldu.



Lakin finalın nəticəsi nə olursa-olsun, Azərbaycan yığmasının əldə etdiyi gümüş medal əslində qızıl dəyərindədir. Bu nailiyyət, dünya səviyyəsində rəqabətin ən yüksək olduğu komanda yarışında irəli doğru atılan tarixi addımdır.

### FƏTƏLİYEVANIN QIZILI

Milli komandamızın lideri Ülviyyə Fətəliyeva yarışın ən parlaq fiqurlarından biri oldu. O, turniri 10 oyunda 6 xalla başa vuraraq birinci lövhədə fərdi qızıl medal qazandı. Bu nəticə yalnız şəxsi uğur deyil, həm də komanda üçün həlledici təkan idi. Fətəliyevanın soyuqqanlı oyunu, çətin situasiyalarda məsuliyyəti üzərinə götürməsi komanda yoldaşları üçün də əlavə motivasiya idi.

Digər şahmatçılarımız - Gövhər Beydullayeva, Gülnar Məmmədova, Xanım Balacayeva və Ayan Allahverdiyeva da turnirdə etibarlı çıxış edərək ümumi uğurun formalaşmasında mühüm rol oynadılar.

## LİNARES UĞURU HƏM DƏ YENİ MƏSULİYYƏT DEMƏKDİR




Bu uğurun əhəmiyyəti, əslində, nəticənin özündən daha genişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan qadın şahmatı tarixində ilk dəfə komanda şəklində dünya çempionatında medalçı oldu. Bu, şübhəsiz, qadın şahmatımızın beynəlxalq arenadakı nüfuzunu kəskin şəkildə artırır. Eyni zamanda, bu idman növündə yeni-yeni addım atan qızlar üçün motivasiyadır. Dünya çempionatında komandanın finala qədər irəliləməsi təsadüf deyil. Azərbaycanın qadın şahmatında son illərdə ardıcıl inkişaf müşahidə olunur. Müxtəlif yarışlarda qızlarımızın fərdi uğurları yekunda komanda formasında ciddi uğuru şərtləndirirdi.

Linares uğuru həm də yeni məsuliyyət deməkdir. Komanda artıq yalnız iştirakçı deyil, gələcək yarışların favoritlərindən biri olacaq. Azərbaycan kişi şahmatçıları hər zaman dünya şahmatının elitasında təmsil olunub, "iti zəka sahiblərimiz" böyük turnirlərdə bir qayda olaraq ən güclülərdən hesab olunublar. Son illərdə qadın şahmatında gedən inkişaf, bir-birinin ardınca özünü doğruldan gənc şahmatçılarla güclü bir kollektivin formalaşması anlamına gəlirdi. Bu prosesin məntiqi davamı kimi Linaresdə qazanılan gümüş medal qadın şahmatımızın artıq yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Qarşıdakı illərdə onların daha böyük arenalarda söz sahibi olacağına inanmaq üçün kifayət qədər əsas var.